# Kəlbəcərdə dəmir yolu xətti çəkilir



**Kəlbəcər dəmiryolu xəttinin peyk vasitəsilə topoqrafiya planlaması işləri başa çatdırılıb.**

Bu, Nazirlər Kabinetinin 2021-ci il üçün hesabatında əksini tapıb.

Hesabatda qeyd edilib ki, 88,08 km uzunluğunda yolun konseptual layihəsi hazırlanıb və dəmiryolu xətti üzrə təxminən 220-ə yaxın süni mühəndis qurğuların, o cümlədən 26 körpünün, 3 tunelin, 3 viadukun, 14 avtomobil alt keçidinin, 4 üst keçidinin layihələndirilməsi və tikintisi nəzərdə tutulub.

# ABŞ səfiri Moskvanı tərk etmək fikrində deyil



**ABŞ-ın Rusiyadakı səfiri Con Sallivan Moskvanı tərk etmək niyyətində olmadığını bildirib.**

APA RİA "Novosti"yə istinadən xəbər verir ki, bununla belə o, Rusiya tərəfinin istəyi ilə ABŞ-a göndəriləbiləcəyini istisna etməyib.

"Biz hələ də burdayıq, çalışırıq və mən heç yerə getməyi planlaşdırmıram", - o brifinqdə qeyd edib.


№ 44 (5566), 2022-ci il

Qiymət 40 qəpik

# ŞƏRQ

Günəş Şərqdən doğur!

www.sherg.az 10 mart 2022-ci il (cümə axşamı)




# Bir ay ertələndi

## Birinci siniflərə şagird qəbulunun vaxtı dəyişdirildi

**2022-2023-ci tədris ili üzrə ümumi təhsil müəssisələrinin birinci siniflərinə şagird qəbuluna may ayında başlanılacaq.**

Bunu Təhsil Nazirliyinin İctimaiyyətlə əlaqələr sektorunun müdiri Cəsarət Valehov Feysbuk hesabında yazıb.

O qeyd edib ki, ümumi təhsil müəssisələrinin I siniflərinə qəbul prosesi www.mektebeqebul.edu.az elektron portalı vasitəsilə aparılacaq.

Prosesin başlanılma tarixi barədə vətəndaşlara əvvəlcədən ətraflı məlumat veriləcək.

*Qeyd edək ki, Təhsil Nazirliyinin təqvimində daha əvvəl I siniflərə şagird qəbulunun aprelin 1-dən sentyabrın 14-nə qədər aparılacağı qeyd edilmişdi.*



# BMT: Müharibə başlayandan Ukraynada 1424 mülki şəxs həlak olub

**Ukraynada fevralın 24-də başlayan müharibə nəticəsində indiyədək azı 1424 mülki şəxs həlak olub.**

APA ildirir ki, bu statistika BMT-nin məlumatında yer alır.

Məlumatda qeyd olunur ki, müşki əhali arasında itkilərin əksəriyyəti geniş radiuslu məhvetmə ərazisi olan partlayıcı silahlardan, o cümlədən ağır artilleriya və reaktiv sistemlərdən açılan atəş nəticəsində həyatını itirib.

Bildirilir ki, həlak olan mülki şəxslərin əksəriyyətinin cinsi müəyyən edilməyib.

# Sənədsiz evlərə dair təkliflər

## Prezident Administrasiyasına təqdim edilib



**Hökumət Bakıda və digər ərazilərdə kənd təsərrüfatı və digər təyinatlı torpaqlarda tikilmiş fərdi evlərin taleyi ilə bağlı məsələyə aydınlıq gətirib.**

Bu, Nazirlər Kabinetinin 2021-ci il üçün hesabatına əksini tapıb.

Hesabatda qeyd edilib ki, torpaq sahələrinin kateqoriyalarının dəyişdirilməsi Nazirlər Kabinetinin 2017-ci il 20 yanvar tarixli qərarı ilə təsdiq edilmiş "Torpaqların kateqoriyalara aid edilməsi və onların bir kateqoriyadan digərinə keçirilməsi Qaydaları "na uyğun olaraq həyata keçirilir. Qaydalara uyğun olaraq, torpaq sahəsinin katetoqriyasının dəyişdirilməsi barədə vəsatət qaldırıldığı və müvafiq sənədlər təqdim edildyi təqdirdə torpaq sahəsinin kateq

(səh.2)

# Geri dönürlər?

## Rus sülhməramlıların bir hissəsi Qarabağdan çıxarılır



Sanksiyalar dərinləşir, Kreml maliyyə çətinliklərinə görə kənar bölgələrdə hərbçilərini saxlaya bilməyəcək

**Rusiya Silahlı Qüvvələrinin hərbi kalonunun Laçın dəhlizi ilə Xankəndidən yola düşməsi faktı qeydə alınıb. Bununla bağlı video-görüntülər yayılıb.**

Bəzi iddialara görə, rus hərbçiləri Ukrayna ilə müharibəyə cəlb olunacaqlar. Həmçinin, başqa bir versiyaya görə, hərbçilərin bir hissəsi Gümrüdəki 102-ci bazaya köçürüləcək, Gümrüdə olanlar isə Ukrayna ilə müharibə üçün yola düşəcəklər.

Mediada yayılan video-görüntü ilə bağlı "Şərq"ə danışan Vətəndaş Həmrəyliyi Partiyasının sədr müavini Samir Əsədli deyib ki, rus "sülhməramlı"ları Azərbaycan ərazisində müvəqqəti yerləşdirilib və ölkə ictimaiyyətində rus "sülhməramlıları"na münasibət birmənalı deyil. Partiya funksioneri bildirib ki, ruslar Qarabağa "sülh" yaratmaq yox, Moskvanın siyasətini həyata keçirtmək üçün yə gəliblər: "Video-görüntülərə keçməzdən öncə onu deyim ki, Qarabağda baş verən bütün təxribatlarda, ordumuzun mövqelərinin erməni quldurları tərəfindən atəşə tutulmasında rus "sülhməramlıları"nın əli var.

(səh.3)

# Pandemiya artıq başa çatır

## Yaz aylarında "Covid" pasportu tələbi də aradan qaldırılacaq



**"Karantin qaydalarının yumşaldılmasına sevinən əhali yenidən yoluxma təhlükəsiylə üzləşə bilər. Karantin qaydalarının yumşaldılması bizi məsuliyyətdən azad etmir, əksinə, məsuliyyətimizi ikiqat artırır".**

Bu fikirləri "Şərq"ə açıqlamasında həkim-infeksionist Mərdan Əliyev bildirdi. İnfeksionist qeyd etdi ki, karantin qaydalarının yumşaldılması, bəzi qadağaların aradan qaldırılması yoluxma sayını artırır:

- Bu, həqiqətdir. Həmişə belə olur. Karantin qaydaları sərtləşəndə, yoluxma sayı getdikcə azalmağa başlayır. Nə zaman ki, qaydalar yumşaldılır, yoluxma sayında yenə artım baş verir. Pandemiyaların xüsusiyyəti budur. Daimi karantin rejimini saxlamaq mümkün deyil.

(səh.3)




# Jurnalistlər üçün nəzərdə tutulan vəsiqələrin nümunəsi hazırlanıb

**Medianın İnkişafı Agentliyi (MEDİA) tərəfindən jurnalistlər üçün nəzərdə tutulan vəsiqələrin nümunəsi hazırlanıb.**

Bunu MEDİA-nın şöbə müdiri Natiq Məmmədli deyib.

"Media subyektləri üçün nəzərdə tutulan şəhadətnamələrin nümunələri hazırdır. Eyni zamanda, jurnalistlər üçün nəzərdə tutulan vəsiqələrin nümunəsi də hazırdır", - deyə N.Məmmədli qeyd edib.

N.Məmmədli əlavə edib ki, bu sənədlərin ilkin versiyası hazırlanıb və müvafiq olaraq qurumlarla müzakirə olunmaqdadır.

# Son sutkada 126 nəfər koronavirusa yoluxub

## 11 nəfər vəfat edib, 882 nəfər müalicə olunaraq sağalıb




**Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 126 yeni yoluxma faktı qeydə alınıb, 882 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Şərq"ə verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 11 nəfər vəfat edib.

Azərbaycanda indiyədək ümumilikdə 789 883 nəfər koronavirus infeksiyasına yoluxub. Onlardan 777 396 nəfər müalicə olunaraq sağalıb, 9558 nəfər vəfat edib, aktiv xəstə sayı 2929 nəfərdir.

# Azərbaycanın Ukraynadakı keçmiş səfiri axtarışa verilib

## 79 yaşlı diplomat mənimsəmə və ya israf etmədə təqsirləndirilir




**Azərbaycanın Ukraynadakı keçmiş səfiri Tələt Əliyev axtarışa verilib.**

Bu barədə Bakı Şəhər Baş Polis İdarəsinin (BŞBPİ) saytında məlumat yerləşdirilib.

79 yaşlı diplomat Cinayət Məcəlləsinin 179-cu maddəsi (mənimsəmə və ya israf etmə) üzrə təqsirləndirilir.

*Qeyd edək ki, Tələt Müseyib oğlu Əliyev 1942-ci ildə Naxçıvan şəhərində anadan olub. O, 2001-2010-cu illərdə Azərbaycanın Ukraynadakı səfiri vəzifəsində çalışıb. T.Əliyev eyni zamanda 2002-2006-cı illərdə Azərbaycanın Belarus və Moldovada da səfiri işləyib.*




# "Kiyevdə yemək, su, istilik istənilən qədər deyil"

Mücahit Topçu: "Zelenski tarix kitablarına ya qəhrəman, ya da xəyalpərəst kimi düşəcək"

(səh.4)

# "Dilqəm "Qızıl at"ın belindədir, mənə nə kömək edəcək?"

Şahbaz Quliyev: "Mənim siqaret almağa pulum yoxdur"



(səh.5)



# Ukrayna ətrafında cərəyan edən hadisələr müzakirə olunub

## Prezident İlham Əliyev Böyük Britaniya Baş nazirinin Azərbaycan üzrə ticarət elçisini qəbul edib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 9-da Böyük Britaniya Baş nazirinin Azərbaycan üzrə ticarət elçisi Baronessa Emma Nikolsonu qəbul edib.**

Prezident İlham Əliyev bu il Azərbaycanla Böyük Britaniya arasında diplomatik əlaqələrin qurulmasının 30 illiyinin qeyd olunduğunu məmnunluqla xatırladı, bu münasibətlə Böyük Britaniyanın Baş naziri Boris Conson tərəfindən ona ünvanlanmış səmimi məktubu xüsusilə qeyd etdi və özünün də Böyük Britaniyanın Baş nazirinə diplomatik münasibətlərimizin 30 illiyi münasibətilə səmimi məktub göndərdiyini dedi.

Dövlətimizin başçısı Azərbaycan ilə Böyük Britaniya əlaqələrinin yüksək səviyyədə olduğunu və strateji tərəfdaşlıq zəminində inkişaf etdiyini vurğulayaraq ölkələrimiz arasında qarşılıqlı inam və etimadın olduğunu qeyd etdi.

Prezident İlham Əliyev Böyük Britaniyanın Azərbaycanın əsas ticarət tərəfdaşı və iqtisadiyyatımıza ən böyük sərmayə qoyan ölkə olduğunu bildirdi, iqtisadi, ticarət əlaqələrinin genişlənməsini, enerji sahəsində əməkdaşlıq və bu sahədə BP-nin ölkəmizdə uğurlu fəaliyyətini xüsusilə vurğuladı.

Prezident İlham Əliyev Böyük Britaniya şirkətlərinin işğaldan azad edilmiş ərazilərimizdə fəaliyyət göstərməsini, xüsusilə şəhərlərin planlaşdırılması, minalardan təmizləmə və digər sahələrdə uğurlu fəaliyyətini qeyd etdi.

Böyük Britaniya Baş nazirinin Azərbaycan üzrə ticarət elçisi Baronessa Emma Nikolson diplomatik münasibətlərimizin qurulmasının bu il 30 illiyinin qeyd edildiyini məmnunluqla vurğuladı və bu münasibətlə Böyük Britaniya Baş nazirinin dövlətimizin başçısına ünvanlandığı məktuba diqqət çəkdi.

Baronessa Emma Nikolson iqtisadi, ticarət, enerji sahələrində ölkələrimiz arasında əməkdaşlıq və bu xüsusda BP-nin Azərbaycandakı fəaliyyəti və onun genişləndirilməsi, BP ilə ölkəmizin bərpa olunan enerji sahəsində əməkdaşlığının inkişaf etdirilməsi məsələlərinə toxundu.

İşğal dövründə ermənilərin şəhər və kəndlərimizdəki tarixi, mədəni, dini abidələri və tikililəri vəhşicəsinə dağıtdıqlarını, torpaqlarımızda vandallıq əməlləri törətdiklərini deyən Prezident İlham Əliyev işğaldan azad edilmiş ərazilərdə Azərbaycanın daxili imkanlar hesabına həyata keçirdiyi genişmiqyaslı quruculuq prosesi barədə məlumat verdi. Həmin ərazilərdə, ilk növbədə, infrastrukturun yaradılması, yollar, elektrik enerjisi, minalardan təmizləmə istiqamətində intensiv fəaliyyətin aparıldığını bildirdi. Prezident İlham Əliyev ölkəmizin enerji siyasətində bərpaolunan enerjiyə xüsusi əhəmiyyət verildiyini, artıq bir çox xarici şirkətlərlə bu sahədə əməkdaşlığın qurulduğunu deyərək BP ilə də enerji sahəsindəki ənənəvi əməkdaşlığa əsaslanaraq bərpaolunan enerji sahəsində əməkdaşlığın inkişaf etdirilməsinin vacibliyini vurğuladı.

Söhbət zamanı, ölkələrimiz arasında iqtisadi, ticarət əlaqələrinin genişləndirilməsi, təhsil, mədəniyyət və digər sahələrdə əməkdaşlıq məsələlərinə dair fikir mübadiləsi aparıldı.

*Görüşdə regional məsələlər və Ukrayna ətrafında cərəyan edən hadisələr müzakirə olundu.*

# "Ukrayna bir qarış da olsa ərazi güzəşti etməyəcək"

## Zelenskinin ofisi Ukraynanın neytral statusunun müzakirəsi üçün şərtini açıqlayıb



**"Ukrayna Təhlükəsizlik zəmanəti verildiyi təqdirdə Rusiyanın neytrallıq tələbini müzakirə etməyə açıqdır, lakin bir qarış da olsa ərazi güzəşti etməyəcək".**

Bunu "Bloomberg"ə açıqlamasında Ukrayna Prezident administrasiyasının Xarici Siyasət və Avropaya İnteqrasiya Baş idarəsinin direktoru İqor Jovkva deyib.

O, Ukraynanın diplomatik həll yoluna hazır olduğunu vurğulayıb. "Nümayəndələr heyəti səviyyəsində müzakirələrin artıq üç raundu olub. Sabah bizim xarici işlər nazirimiz Türkiyə xarici işlər naziri ilə birlikdə Rusiya xarici işlər naziri Lavrovla görüşəcək. Daha da vacibi, mənim Prezidentim Prezident Putinlə birbaşa müzakirələrə hazırdır. Biz geniş spektrli müzakirələrə hazırıq. Amma təəssüf ki, bu cür hazırlığı Prezident Putinin özündə görməmişik, - deyə Jovkva bildirib. (apa)

O, əlavə edib ki, iki ölkənin Prezidentləri arasında bu cür görüş keçirilməsi üçün Ukraynanın ön şərti dərhal atəşkəs və Rusiya qoşunlarının ölkədən çıxarılmasıdır.

# Tarixi səfər baş tutub

## Ərdoğan: "İsraillə birgə hədəfimiz siyasi dialoqun yenidən canlandırılmasıdır"



**İsraillə birgə hədəfimiz ölkələrimiz arasında hörmətə əsaslanan siyasi dialoqun yenidən canlandırılmasıdır.**

APA "Anadolu"ya istinadən xəbər verir ki, bunu Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan israilli həmkarı İsaak Herzoqla birgə mətbuat konfransında deyib.

Ərdoğan İsrail Prezidenti Herzoqun ölkəsinə səfərini tarixi ziyarət kimi qiymətləndirib.

"Bu səfərin Türkiyə-İsrail əlaqələrində yeni bir dönüş nöqtəsi olacağına inanıram.

Bölgəmizdə sülh, sabitlik və birgəyaşayış mədəniyyətinin hakim olmasına töhfə vermək bizim əlimizdədir", - Türkiyə dövlət başçısı qeyd edib.

O, iki dövlətli həll yoluna əhəmiyyət verdiklərini Herzoqun diqqətinə çatdırdığını vurğulayıb.

# Media Reyestri artıq hazırdır



**Media Reyestri artıq hazırdır. Bunu Media İnkişaf Agentliyinin şöbə müdiri Natiq Məmmədli deyib.**

"Media Reysterinin ilkin qaydaları hazırlanıb və işçi qaydada müvafiq strukturlarla müzakirələr aparılır" - , deyə N.Məmmədli əlavə edib.

**N.Məmmədli media subyektlərinin reyestra nə zaman daxil ediləcəyinə də aydınlıq gətirib:**

"Media subyektlərinin reyestrə daxil edilməsi tam şəkildə təşkilatı hüquqi məsələr başa çatdıqdan sonra olacaq. Nazirlər Kabinetinin sərəncamında qeyd olunduğu kimi qısa vaxtda resytrin fəaliyyətə başlamasının şahidi olacağıq", - deyə o qeyd edib.

# Aİ Şurası Rusiya və Belarusa qarşı yeni sanksiyaları təsdiqləyib



**Avropa İttifaqı Şurası Ukraynaya hücumla əlaqədar Rusiya və Belarusa qarşı sanksiyaları təsdiq edib.**

"Report" UNİAN-a istinadən xəbər verir ki, bu barədə Avropa İttifaqı (Aİ) Şurasının bəyanatında deyilir.

Sanksiyalara aşağıdakılar daxildir:

Belarusun SWIFT banklarına - "Belagroprombank", "Dabrabyt" və "İnkişaf Bankı" və onların törəmə şirkətlərinə girişin məhdudlaşdırılması;

Belarus Mərkəzi Bankı ilə əməliyyatlar qadağandır;

Aprelin 12-dən etibarən Belarusun dövlət müəssisələrinin səhmləri üçün Aİ-nin ticarət sessiyalarında liziq və xidmətlər qadağandır;

Belarusun rezidentlərindən Avropa Bankında 100 min avrodan çox məbləğdə əmanət yerləşdirmək, mərkəzi depozitarlarda belaruslu müştərilərin hesablarını aparmaq və avro ilə qiymətli kağızları satmaq qadağandır;

Bundan əlavə, Rusiyaya dəniz naviqasiyası və radio rabitəsi məhsullarının tədarükünə məhdudiyyətlər tətbiq edilir. Hüquqi şəxslərin və təşkilatların sanksiya siyahısı da genişləndirilib. Onlar investisiyalar, qiymətli kağızlar və maliyyə alətləri üzrə məhdudiyyətlərə məruz qalıblar.

# Azərbaycana gəlmək istəyən 5 "arzuolunmaz şəxs" saxlanılaraq geri qaytarılıb

**Ötən il dövlət sərhədindən keçməyə hüquq verən sənədləri olmayan 3211 nəfər barəsində müvafiq qərarlar verilib.**

Bu, Nazirlər Kabinetinin 2021-ci illə bağlı hesabatında qeyd olunub.

Bildirilib ki, xaric olunma faktları ilə bağlı 244 nəfər, ekstradisiya faktları ilə bağlı 62 nəfər qeydə alınıb.

Xarici ölkələrdən Azərbaycana gəlmək istəyən 5 nəfər "arzuolunmaz şəxs" qismində saxlanılaraq geri qaytarılıb.

Hesabat dövründə ölkədən çıxışa dair məlumat olmadığı üçün 231 nəfər və digər səbəblərdən 7 nəfər şübhəli şəxs qismində saxlanılıb.

# Sənədsiz evlərə dair təkliflər

## Prezident Administrasiyasına təqdim edilib



**Hökumət Bakıda və digər ərazilərdə kənd təsərrüfatı və digər təyinatlı torpaqlarda tikilmiş fərdi evlərin taleyi ilə bağlı məsələyə aydınlıq gətirib.**

Bu, Nazirlər Kabinetinin 2021-ci il üçün hesabatına əksini tapıb.

Hesabatda qeyd edilib ki, torpaq sahələrinin kateqoriyalarının dəyişdirilməsi Nazirlər Kabinetinin 2017-ci il 20 yanvar tarixli qərarı ilə təsdiq edilmiş "Torpaqların kateqoriyalara aid edilməsi və onların bir kateqoriyadan digərinə keçirilməsi Qaydaları "na uyğun olaraq həyata keçirilir. Qaydalara uyğun olaraq, torpaq sahəsinin kateqoriyasının dəyişdirilməsi barədə vəsatət qaldırıldığı və müvafiq sənədlər təqdim edildiyi təqdirdə torpaq sahəsinin kateqoriyasının dəyişdirilməsi məsələsinə müəyyən olunmuş qaydada baxılır.

Eyni zamanda "Aqrar sahədə istehsalın və emal sənayesinin inkişafına dair bir sıra tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 15 iyul tarixli fərmanının icrası olaraq torpaqların kateqoriyalara aid edilməsi, onların bir kateqoriyadan digərinə keçirilməsi və məqsədli təyinatın dəyişdirilməsi ilə bağlı normativ hüquqi bazanın təkmilləşdirilməsi barədə təkliflər İqtisadiyyat Nazirliyi tərəfindən hazırlanmış və aidiyyatı dövlət qurumları ilə razılaşdırma mərhələsindədir.

Hesabatda bildirilib ki, bundan əlavə "Azərbaycan Respublikasında bəzi torpaqlardan səmərəliliyin artırılması haqqında" Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbərinin 2019-cu il 13 may tarixli sərəncamı ilə müvafiq İşçi Qrupu yaradılıb: "İşçi Qrupun fəaliyyəti nəticəsində qüvvədə olan şəhərsalma norma və qaydalarına tam riayət edilməməklə tikilmiş fərdi yaşayış evlərinin və onların yerləşdiyi torpaq sahələrinin hüquqi müqəddəratı ilə bağlı təkliflər Prezident Administrasiyasına təqdim edilib".

# ABŞ Rusiyadan bütün enerji məhsullarının idxalını dayandırıb

## Neftin qiymətinin 150 dollaradək yüksəlməsi çox zaman almayacaq



**Dünya bazarında "Azəri Light" markalı Azərbaycan neftinin 1 barelinin qiyməti 5,7 faiz artaraq 136 dollara çatıb. Xatırladaq ki, brent neftin ən aşağı qiyməti 2020-ci il aprelində 16 dollar təşkil edib. Azərbaycanın builki dövlət büdcəsində bir barel neftin orta qiyməti 50 dollar götürülüb.**

Ölkəmizdə neft əsasən "Azəri-Çıraq-Günəşli" yataqlar blokunun işlənməsi haqqında müqavilə çərçivəsində hasil edilir. Müqavilədə Dövlət Neft Şirkətinin (SOCAR) payı 25 faizdir.

Millət vəkili Vüqar Bayramov deyib ki, ABŞ Rusiyadan xam neft daxil olmaqla bütün enerji məhsullarının idxalını dayandırır. Deputatın sözlərinə görə, Amerikanın ən yaxın müttəfiqi olan Böyük Britaniya da ilin sonunadək Rusiya nefti ilə vidalaşmağı düşünür: "Bu zamanadək Böyük Britaniya alternativ mənbələr tapmağı çalışacaq. ABŞ-ın enerji sanksiyası nəyi dəyişəcək? Aydındır ki, bu addım dünya bazarında neftin qiymətindəki artımları daha da sürətləndirəcək. Artıq Brent markalı neftin 1 barelinin qiyməti 136 dollardan baha təklif olunur. Sanksiyalar qüvvəyə mindikdən sonra neftin qiymətinin 150 dollaradək yüksəlməsi çox zaman almayacaq. Bəzi ekspertlər isə Avropanın sanksiyalara qoşulacağı halda neftin 200 dollara satılacağını istisna etmirlər. ABŞ və Səudiyyə Ərəbistanından sonra dünyada üçüncü ən böyük hasilatçı olan Rusiya qlobal bazara gündəlik 5 milyon barel neft çıxarır. Ağ Ev üçün rus neftindən imtina qərarı elə də çətin deyildi. Çünki Rusiya Amerikanın neft idxalında cəmi 3 faiz paya malikdir. Rusiya enerji ixracatının 50 faizi isə Avropanın payına düşür. Bu baxımdan, Avropada Rusiyadan gələn neft borularını bağlamaq üçün hələlik zaman lazımdır".

**Parlament üzvü qeyd edib ki, Amerikanın OPEC-dən və xüsusən, Səudiyyə Ərəbistanından neft hasilatını artırmağı istəyəcəyi gözlənilir:** "Qərb daha qısa zamanda Rusiya neftinə alternativ tapmağa çalışır. Əks addım olaraq Rusiyanın da Avropaya mavi qaz nəqlini dayandırması istisna deyil. Avropa qaz idxalının 40 faizini hələ də Rusiyadan almaqdadır. Bütün hallarda görünən odur ki, birjalarda ciddi çalxalanmalar olacaq. Dünya iqtisadiyyatı da yeni dönəmə daxil olmaqdadır. İnflyasiyanın sürətlənəcəyi bu dönəmdə "İngilis qaydaları" prosesləri diktə etməkdədir".

**İsmayıl Qocayev**



# İsrailli jurnalist: "Türkiyənin səfirliyi yenidən açılacaq"

**Türkiyənin İsraildəki səfirliyi yenidən açılacaq.**

APA-nın xəbərinə görə, bu barədə israilli jurnalisti Barak Ravid Tvitterdə yazıb.

Jurnalist qeyd edib: "Mövlud Çavuşoğlu mənə bildirdi ki, o, aprelin əvvəllərində İsrailə və Fələstinə səfər edəcək. İsrail XİN başçısı Yair Lapidlə görüşəcək və səfirlik yenidən açılacaq".

# Mariupolda doğum evinə hücum olub

## Doğum evi yerlə-yeksan olub, çoxlu sayda yaralı var

**Rusiya hərbçiləri Mariupoldakı doğum evinə artilleriya zərbəsi endiriblər.**

"Report" xəbər verir ki, bu barədə Ukrayna Milli Polisi rəhbərinin birinci müavini Vyaçeslav Abroskin feysbukda yazıb.

"Ruslar Mariupoldakı 2 saylı doğum evinə artilleriya zərbəsi endiriblər. Şahidlərin sözlərinə görə, doğum evi yerlə-yeksan olub, çoxlu sayda yaralı var. Bir qadın həlak olub", - Abroskin qeyd edib.

Bundan əlavə, Mariupol Şəhər Şurasının mətbuat xidməti rus hərbçilərinin uşaq xəstəxanasına bir neçə bomba atdığını bildirib:

"Dağıntılar böyükdür. Xəsarət alan uşaqlarla bağlı məlumat dəqiqləşdirilir".

# Nazarbayev forumda iştirak etmək üçün Antalyaya gedib



**Qazaxıstanın birinci Prezidenti Nursultan Nazarbayev diplomatik forumda iştirak etmək üçün Türkiyənin Antalya şəhərinə gedib.**

APA-nın xəbərinə görə, Nazarbayevin mətbuat katibi bildirib ki, səfər Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın dəvəti ilə baş tutub.

"Türkiyə Prezidenti Ərdoğanın dəvəti ilə elbaşı forumda iştirak etmək üçün Antalyaya gedib. Antalya forumu qlobal və regional məsələlərdə fikir mübadiləsi üçün diskussiya meydanıdır", - deyə mətbuat katibi bildirib.



# Ankara görüşü mövcud situasiyanın xarakterini dəyişə bilər

## Aqşin Kərimov: "Lavrov-Kuleba görüşünün müharibəni dayandıracağı barədə ehtimal irəli sürmək çətindir"

**Martın 10-da Türkiyənin vasitəçiliyi ilə Antalyada Rusiyanın Xarici işlər naziri Sergey Lavrovla ukraynalı həmkarı Dmitri Kuleba arasında görüş gözlənilir.**

Əgər tərəflər görüşdən imtina üçün hər hansı səbəb gətirməzsə, XİN rəhbərlərinin danışığı müharibənin gedişatında fərqli məzmun qazanılması üçün stimul ola bilər.

Çünki müharibə başlayandan sonra xarici işlər nazirləri səviyyəsində bir dəfə də olsun görüş olmayıb. Bu zamana qədər Rusiya-Ukrayna nümayəndə heyətləri arasında keçirilən üç raund danışıq daha çox müharibənin gedişatında humanitar razılaşmaların əldə edilməsinə hesablanmışdı. Ekspertlərin fikrincə, Lavrov-Kuleba görüşü həmin razılaşmalardan da üstün tezislərə dair şərtlərin formalaşması deməkdir.

**Siyasi şərhçi Aqşin Kərimov hesab edir ki, Moskva və Kiyev müharibənin nəticələrinə dair köklü dəyişikliyə hazır olduğunu bəyan edirlər və Türkiyənin vasitəçiliyinə inam bəsləyirlər.** Analitik vurğulayıb ki, diqqəti yönəltməli olduğumuz digər məqam müharibənin gedişatında Rusiya-Ukrayna danışıqlarının ilk dəfə NATO üzvü olan bir ölkədə - Türkiyədə keçiriləcəyidir: "Türkiyə NATO-nun kollektiv maraqlarından irəli gələn prinsiplərə əsaslanaraq Rusiya-Ukrayna münaqişəsinin sülh yolu ilə tənzimlənməsində hərbi alyansın lokomotivinə çevrilir.

Ancaq Türkiyə özünün dövlət avtoritetini də hərbi blokun birgə maraqlarından üstün tutur. Çünki Ukraynada partlayan hər bomba, hər keçən günün yaratdığı dramatik mənzərə Türkiyə üçün də təhlükələr yaradır. Əsasən, Qara dəniz hövzəsində Rusiyanın hegemonluq meyilləri Türkiyəni narahat edir. Bu baxımdan Türkiyə üçün hələlik birbaşa risk yaranmasa da, Ankara bu risklərə qarşı müdafiə sistemini gücləndirmək əzmini nümayiş etdirir. Bu mənada Türkiyənin Xarici işlər naziri Mövlud Çavuşoğlunun vasitəçiliyi Lavrovla Kulebanın eyni masa arxasına əyləşməsi həm də Ankaranın tərəflərə öz narahatlıqlarını üz-üzə formatda çatdırması deməkdir".

**A.Kərimov düşünür ki, Lavrov Ankaradan Türkiyənin müharibəyə dair yanaşmasını bir daha dinləmək niyyətindədir:** "Gedişatın doğura biləcəyi nəticələr Ankaranın da fərqli siyasi kursa müraciət etməsini şərtləndirə bilər. Rusiya müharibənin nəticəsindən asılı olmayaraq, Ankara kimi strateji tərəfdaşını itirməyi arzulamır, Ukrayna isə Türkiyədən daha çox yardım istəyir. Lavrovla Kulebanın Antalyada görüşə razılıq verməsi Ukraynada döyüşlərin şiddətlənməsinin müşayiətində baş tutdu. Rusiya isə zaman irəlilədikcə strateji niyyətindən dönmədiyini bildirir və Kiyevin mühasirəsini daraldır. Bu baxımdan Lavrov-Kuleba görüşünün müharibəni dayandıracağı barədə ehtimal irəli sürmək çətindir, XİN başçıları bağlı qapılar arxasındakı müzakirələrinin nəticələri barədə öz dövlət başçılarına məruzə etdikdən sonra verilən qərar mövcud situasiyanın xarakterini dəyişəcək".

**İsmayıl Qocayev**

# Geri dönürlər?

## Rus sülhməramlıların bir hissəsi Qarabağdan çıxarılır

**Rusiya Silahlı Qüvvələrinin hərbi kalonunun Laçın dəhlizi ilə Xankəndidən yola düşməsi faktı qeydə alınıb. Bununla bağlı video-görüntülər yayılıb.**



## Sanksiyalar dərinləşir, Kreml maliyyə çətinliklərinə görə kənar bölgələrdə hərbçilərini saxlaya bilməyəcək

Bəzi iddialara görə, rus hərbçiləri Ukrayna ilə müharibəyə cəlb olunacaqlar. Həmçinin, başqa bir versiyaya görə, hərbçilərin bir hissəsi Gümrüdəki 102-ci bazaya köçürüləcək, Gümrüdə olanlar isə Ukrayna ilə müharibə üçün yola düşəcəklər.

**Mediada yayılan video-görüntü ilə bağlı "Şərq"ə danışan Vətəndaş Həmrəyliyi Partiyasının sədr müavini Samir Əsədli deyib ki, rus "sülhməramlı"ları Azərbaycan ərazisində müvəqqəti yerləşdirilib və ölkə ictimaiyyətində rus "sülhməramlıları"na münasibət birmənalı deyil.** Partiya funksioneri bildirib ki, ruslar Qarabağa "sülh" yaratmaq yox, Moskvanın siyasətini həyata keçirtmək üçün yə gəliblər: "Video-görüntülərə keçməzdən öncə onu deyim ki, Qarabağda baş verən bütün təxribatlarda, ordumuzun mövqelərinin erməni quldurları tərəfindən atəşə tutulmasında rus "sülhməramlıları"nın əli var. Rus hərbçiləri bölgədəki erməni silahlılarını təxribatlara təşviq edirlər. Rusiya hərbi maşınlarının Xankəndidən çıxışını əks etdirən video-görüntü ilə bağlı rəsmi məlumat yoxdur. Moskvadan bununla bağlı hansısa açıqlama verilməyib. Ancaq Ukrayna ərazilərini işğal edən və iki həftədən çoxdur müharibə aparan rus ordusunun itkilərinin çox olduğu məlumdur. Rusiya tərəfinin əlavə hərbi qüvvələrə ehtiyac duyduğu şübhəsizdir. Bu mənada Qarabağda "sülhməramlı" missiyanı yerinə yetirən rus hərbi kontingentinin bir hissəsinin Laçın dəhlizi vasitəsi ilə Ermənistana, Gümrüdəki 102-ci hərbi bazaya, oradan isə başqa bölgəyə aparılması mümkün ehtimallardandır. Həm də Qərbin hərtərəfli təzyiqlərinə, sanksiyalarına məruz qalan Rusiyada iqtisadi böhran dərinləşərsə, Kreml maliyyə çətinliklərinə görə kənar bölgələrdə hərbi qulluqçuları saxlaya, təmin edə bilməyəcək. Yayılan video-görüntülər təsdiqləyir ki, bu gedişlə rus hərbçiləri Azərbaycan torpaqlarında çox qalmayacaq. Ya əlavə qüvvə kimi Ukraynaya, ya da Rusiyaya geri dönəcəklər. Rusiya "sülhməramlı"ları əvvəl-axır Azərbaycan ərazisini tərk edəcəklər. O zaman ruslara arxayın olan erməni separatçıları da himayəsiz və dəstəksiz qalacaqlar".

**İsmayıl Qocayev**

# 4-cü raundda da nəticə olmayacaq

## Samir Hümbətov: "Tərəflər arasında keçirilən görüşlər müvəqqəti atəşkəsin yaradılmasına hesablanıb"



**Martın 7-də Rusiya və Ukrayna arasında danışıqların 3-cü raundu baş tutub. Müzakirələr nəticəsində humanitar dəhlizlərin maddi-texniki təminatının yaxşılaşdırılmasında bəzi müsbət irəliləyişlərin olduğu vurğulanıb.**

Görüşdə atəşkəs və təhlükəsizlik zəmanətləri ilə yanaşı, nizamlamanın əsas siyasi bloku üzrə intensiv məsləhətləşmələr davam etdirilib. Tərəflər arasında danışıqların dördüncü mərhələsinin isə yaxın günlərdə baş tutacağı gözlənilir.

**Beynəlxalq Münasibətlər və Diplomatiya Araşdırmaları Mərkəzinin rəhbəri, politoloq Samir Hümbətov bu barədə "Şərq"ə deyib ki, geridə qalan üç raundda böyük nəticələr əldə olunmayıb:**

"Burda diqqət çəkməli olduğumuz əsas məqam keçirilən görüşlərdə kimlərin iştirak etməsidir. Həmin şəxslər müdafiə naziri, xarici işlər nazirinin müavini və s. rəsmilər olur.

Bu onu göstərir ki, tərəflər arasında keçirilən görüşlər müvəqqəti atəşkəsin yaradılmasına hesablanıb. Ona görə də dördüncü raundda da münaqişə ilə bağlı müsbət razılaşma əldə olunmayacaq".

Politoloqun qənaətincə, indiki məqamda Ukrayna Xarici işlər naziri Dmitro Kuleba və Rusiya XİN başçısı Sergey Lavrovun "Antalya Diplomatiya Formu"unda keçiriləcək görüşlərindən pozitiv nələrsə gözləmək mümkündür:

"Eyni zamanda Putinin Türkiyəyə gözlənilən səfərindən də nəsə nəticə əldə etmək olar. Ümumilikdə isə düşünürəm ki, hazırkı münaqişəyə əsas təsiredici qüvvə Rusiya və Ukrayna prezidentlərinin görüşü ola bilər".

**Günəş Mərd**

**"Karantin qaydalarının yumşaldılmasına sevinən əhali yenidən yoluxma təhlükəsiylə üzləşə bilər. Karantin qaydalarının yumşaldılması bizi məsuliyyətdən azad etmir, əksinə, məsuliyyətimizi ikiqat artırır".**

**Bu fikirləri "Şərq"ə açıqlamasında həkim-infeksionist Mərdan Əliyev bildirdi. İnfeksionist qeyd etdi ki, karantin qaydalarının yumşaldılması, bəzi qadağaların aradan qaldırılması yoluxma sayını artırır:**

- Bu, həqiqətdir. Həmişə belə olur. Karantin qaydaları sərtləşəndə, yoluxma sayı getdikcə azalmağa başlayır.



# Pandemiya artıq başa çatır

## Yaz aylarında "Covid" pasportu tələbi də aradan qaldırılacaq

Nə zaman ki, qaydalar yumşaldılır, yoluxma sayında yenə artım baş verir. Pandemiyaların xüsusiyyəti budur. Daimi karantin rejimini saxlamaq mümkün deyil. Müəyyən müddətdən sonra yumşalmalara gedilməlidir. Çünki sərt karantin rejimi sosial, iqtisadi həyatı axsadır. Hökumətlər adətən sərtləşmə və ya yumşalma qərarlarında mövcud vəziyyəti, yoluxma, sağalma nisbətini, riskləri nəzərə alırlar. Nazirlər Kabineti yanında Operativ Qərargahın martın 6-dan etibarən karantin qaydalarının yumşaldılmasıyla bağlı qərarı da əsassız deyil. Yoluxma sayı getdikcə azalır, peyvəndləmə prosesi arzuolunan səviyyədədir, ölüm halları da azalıb, ən əsası kütləvi immunitet artıq formalaşıb. Koronavirusun "Omikron" ştammı yayılmağa başlayanda biz bildirmişdik ki, sürətli yoluxma kütləvi immunitetin daha tez formalaşmasına səbəb olacaq. Artıq bu, müşahidə edilir. Ona görə də karantin qaydalarında bir sıra yumşalmalara gedildi. Amma yumşalmaların ardınca müəyyən dalğalanmalar, yoluxma sayında "qabarmalar"ın olması mümkündür. Bir neçə gündən sonra bunu müşahidə edəcəyik. Lakin bu artım təhlükəli deyil. Çünki yüksək artım olmayacaq. Və təhlükəli vəziyyətə gətirib çıxarmayacaq. Çünki əhali arasında kütləvi immunitet var artıq.

> "Çünki yüksək artım olmayacaq. Çünki əhali arasında kütləvi immunitet var artıq"

**M.Əliyev bildirdi ki, karantin qaydaları yumşaldılırsa, əhali daha da məsuliyyətli olmalıdır:**

- Toy məclisləri, yas mərasimlərinə icazə verilir, say məhdudiyyəti aradan qalxır və sair. Belə vəziyyətdə hər birimiz ehtiyatlı olmalıyıq. Sıx toplaşmamalıyıq, məclislərdə ünsiyyət zamanı tibbi maskadan mütləq istifadə edilməlidir. Gigiyena qaydalarına əməl edilməlidir, spirtdən istifadə olunmalıdır. Karantin qaydalarının yumşaldılması üzərimizə məsuliyyət qoyur. Elə etməliyik ki, təkrar sərt karantin qaydalarına dönüş baş verməsin.

**M.Əliyev yaxın aylarda karantin qaydalarında növbəti yumşalmalara gedilə biləcəyini də dedi:**

- Mümkündür ki, yaz aylarında "Covid" pasportu tələbi aradan qaldırılsın. Çünki pandemiya artıq sonlanmaq üzrədir. Buna görə də digər məhdudiyyətlər də avtomatik aradan qalxacaq.

**Məlahət Rzayeva**

# Xankəndiyə yol görünür!

## Rusif Məmmədsoy: "Biz indi yarımçıq qalmış işimizi bitirməliyik"

**Martın 8-i günorta saatlarından başlayaraq martın 9-u səhər saatlarınadək Rusiya sülhməramlılarının müvəqqəti yerləşdiyi Azərbaycan ərazisindəki qanunsuz erməni silahlı dəstəsinin üzvləri növbəti dəfə təxribat törədiblər. Terrorçular ordumuzun Xocalı və Goranboy rayonlarında yerləşən mövqelərini müxtəlif çaplı atıcı silahlardan fasilələrlə atəşə tutublar.**

Bu barədə Müdafiə Nazirliyi məlumat yayıb. Məlumata əsasən, təxribatların qarşısını almaq məqsədilə həmin istiqamətlərdə yerləşən bölmələrimiz tərəfindən adekvat cavab tədbirləri görülüb: "Azərbaycan Ordusu heç bir halda mülki infrastrukturu hədəfə almır, yalnız qanunsuz erməni silahlı dəstələrinin mövqelərinə dəqiq zərbələr endirir".

Bundan əlavə martın 7-də də Rusiya sülhməramlılarının müvəqqəti yerləşdiyi Azərbaycan ərazisindəki qanunsuz erməni silahlı dəstəsinin üzvləri tərəfindən ordumuzun Ağdam rayonunun Paprəvənd yaşayış məntəqəsi istiqamətində yerləşən mövqeləri müxtəlif çaplı atıcı silahlardan atəşə tutulub.

**Siyasi şərhçi Rusif Məmmədsoy bu təxribatla bağlı "Şərq"ə bildirib ki, hazırkı proses hər birimizi narahat edir:**

"Çünki ortada həm noyabr, həm də yanvar anlaşmaları var. Təəssüflər olsun ki, qarşımızda bu anlaşmaların əksinə hərəkət edən bir Ermənistan və ona havadarlıq edən Rusiya var. Məncə, indiki gərginlik təsadüfi deyil. Rus sülhməramlılarının komandanı Andrey Volkov Kreml tərəfindən idarə olunur. Bu səbəbdən hazırkı proseslərin də Kremldən idarə olunması açıq-aşkar görünür və onlara cavab verilməlidir".

**R.Məmmədsoyun fikrincə, biz indi yarımçıq qalmış işimizi bitirməliyik, əks təqdirdə Rusiya hər vəchlə bu münaqişə ocağını sönməyə qoymayacaq:**



"O öz təzyiq metodlarını artırmağa çalışacaq. Bu mənada mütləq şəkildə ordakı erməni separatçıları təmizlənməlidir. Dördüncü maddə artıq işə keçməlidir".

**Analitik anti-terror əməliyyatlarına diqqət çəkib:** "Hesab edirəm ki, anti-terror əməliyyatları artıq qapıdadır. Müdafiə naziri, general-polkovnik Zakir Həsənovun türk ordu modelinə keçidin sürətlənməsinin rəsmiləşməsi ilə bağlı əmr verməsi və millət vəkili Tural Gəncəliyevin "Yolumuz Xankəndiyədir" yazılı paylaşımı mənim diqqətimi çəkdi. Bunların üst-üstə düşməsi yaxın günlərdə bu istiqamətdə nələrinsə dəyişəcəyini göstərir. Müdafiə Nazirliyindən verilən son açıqlamada qeyd olunub ki, indi ermənilər atəş açdıqca biz dəqiq zərbələr endiririk".

Siyasi şərhçinin qənaətincə, hazırda erməni separatçıları ərazilərimizdən öz xoşları ilə getmir və Rusiya bunda vasitəçi olmursa, biz bu işi məcbur şəkildə özümüz həyata keçirməliyik.

**Günəş Mərd**

# "Kiyevdə yemək, su, istilik istənilən qədər deyil"

## Mücahit Topçu: "Zelenski tarix kitablarına ya qəhrəman, ya da xəyalpərəst kimi düşəcək"



## Ukraynadakı türkiyəli jurnalist "Şərq"ə Kiyevdəki vəziyyətdən danışıb

**Təxminən 15 gündür ki, bütün dünyanın gözü, qulağı Ukraynadadır. Ölkədəki hadisələrin nə ilə nəticələnəcəyi hamını düşündürür. Kimiləri səmimi dualarının gerçəkləşməsini, kimiləri isə məkrli planlarının baş tutmasını səbirsizliklə gözləyir.**

Belə bir vaxtda təkcə sıravi insanları deyil, dünyanın ən aparıcı informasiya agentliklərini də xəbərlə təmin edən məhz Ukraynadakı fədakar jurnalistlərdir. Həmkarlarımız həyatlarını təhlükəyə atır, bombalardan, güllələrdən daldalanaraq informasiya arxasınca qaçırlar. Onların arasında türkiyəli media nümayəndələri də var. **CNN kanalının müxbiri Mücahit Topçu Ukraynadakı durum və proseslərin inkişafı barədə "Şərq"in suallarını cavablandırıb.**



**- Hazırda Kiyevdə vəziyyət necədir?**

- Kiyev kabuslar şəhərinə bənzəyir. Axşam hava qaranlıqlaşandan sonra səssizlik bir az da artır. O səssizliyi isə sadəcə rusların bombardmanı pozur. Hücumlardan bir neçə saniyə əvvəl eşidilən sirena səsləri sanki xəbərdarlıqdır. Bu səsi eşidən əhali sığınacaqlara qaçır. Yemək, su, istilik istənilən qədər deyil. Marketlər, demək olar, boşdur. Metroda yaşayan insanların ehtiyacları daha çoxdur. Müharibəni daha dərindən hiss edən körpələr, uşaqlar və qadınlardır.

**- Yerli əhali nə deyir, nə düşünür?**

- İnsanlar Rusiyaya müqavimət göstərəcəklərini söyləyirlər. Bunun üçün hazırlıq görürlər. Sakinlər qum torbası, stol, stul, pianino, paltaryuyan maşın və digər məişət əşyalarını küçəyə çıxarır, "səngərlər" düzəldirlər. Onlar ən qısa vaxtda müharibənin diplomatik həll yolunu gözləyirlər. Amma savaş bitənə qədər xalq vətənini qəhrəmanlıqla müdafiə edəcək.

**- Əksəriyyət rusların bir neçə günə Kiyevi işğal edəcəyini düşünürdü. Amma belə olmadı. Ruslar ləng irəliləyir, yoxsa Ukraynanın müqaviməti güclüdür?**

- Ruslar irəliləmirlər. İctimai rəydə çaşqınlıq yaratmaq üçün paytaxt prioritet hədəf kimi göstərilə bilər, amma əslində burada hərəkət güclü deyil. Ukraynanın cənubunda, Qara dəniz ətrafında isə bir çox yerlər Rusiyanın nəzarətinə keçib. Ümumiyyətlə, ola bilsin, Moskvanın hədəfi Kiyev yox, Qara dənizdir. Hər halda hədəf paytaxt olsa, daha şiddətli döyüşlərin, fərqli miqyasda hücumların şahidi olardıq. Fikrimcə, ruslar daha çox Odessanın işğalına kökləniblər. Çünki bu şəhərin tutulması Ukraynanın Qara dənizə çıxan qapısının bağlanması deməkdir.

**- Yerli jurnalistlər necə, hansı şəraitdə işləyirlər?**

- Təkcə ukraynalı media nümayəndələrinin yox, hamımızın işi çətindir. Çünki teleqüllə bombalanıb, televiziya binaları hədəf alınıb.

**- İnformasiya müharibəsinin gedişatını necə qiymətləndirirsiniz?**

- Bəzi xəbərlər həqiqəti əks etdirdiyi halda, bəziləri ancaq təbliğat xarakteri daşıyır. Məncə, Ukrayna sözügedən məsələdə, yəni informasiya savaşında bir addım öndədir. Moskva informasiya təminatında çox gecikir. Rəsmi KİV- lə yanaşı, sosial mediadan da geniş istifadə olunur. Rusiya tərəfi isə rəsmi açıqlamalar vermək istəmir. Kiyev Moskvadan fərqli olaraq özünü daha rahat ifadə edə bilir.

**- Müharibənin nəticəsi, həmçinin Putin və Zelenski hakimiyyətlərinin sonu barədə nə düşünürsüz?**

- Bunu təxmin etmək çox çətindir. Rusiya müharibəni davam etdirsə, mülki əhali arasında itki daha da artacaq. Putin Kiyevi Hələb və İdlib kimi xaraba şəhərə çevirməkdən daha çox, burada yaşamaq istəyir. O, Kiyevi öz evi kimi görür. Ona görə də dağıntıların çox olmamasına çalışır. Bu nöqteyi-nəzərdən, fikrimcə, böhran diplomatik yolla həll olunacaq. Zelenski hazırda Ukraynanın qəhrəmanıdır. Bu müharibənin taleyi isə həm də onun taleyidir. Zelenski tarix kitablarına ya qəhrəman, ya da xəyalpərəst kimi düşəcək. Bunu zaman göstərəcək.

**Kənan Novruzov**



# Makron dialoqa üstünlük verməyə başladı

## Rəsmi Paris gördü ki, Azərbaycan haqlı mövqeyindən qətiyyən geri çəkilmir

**Ermənistan Baş naziri Nikol Paşinyan Fransaya işgüzar səfər edib. Paşinyan Parisdə Fransa lideri Emmanuel Makronla görüşəcək və "Ambisiyalar: Ermənistan-Fransa" forumuna qatılacaq. Ermənistanın nümayəndə heyətinin tərkibinə Xarici işlər naziri Ararat Mirzoyan, səhiyyə naziri Anait Avanesyan, Ərazilərin idarəedilməsi və infrastruktur naziri Qnel Sanosyan və s. vəzifəli şəxslər daxildir.**

Xatırladaq ki, Fransa Prezidenti E.Makron Fransa və Azərbaycan arasında diplomatik münasibətlərin qurulmasının 30 illiyi münasibətilə Azərbaycan Prezidenti İlham Əliyevə təbrik məktubu göndərib. Məktubda vurğulanıb ki, Fransa müzakirə etdiyi bütün mövzularda irəliləyişə nail olmaq üçün öz dəstəyini verməyə hazırdır. Rəsmi Paris həm də ATƏT-in Minsk qrupunun həmsədri kimi, regionda ədalətli, davamlı sülh və rifah mənbəyi üçün səyləri dəstəkləmək öhdəliyinə tam sadiq olduğunu bəyan edib. Mövcud Rusiya-Ukrayna müharibəsi, Qərbin Kremlə tətbiq etdiyi sərt sanksiyalar və Qarabağdakı separatçıların təxribatları fonunda Paşinyanın səfəri diqqət çəkir. Ekspertlərin fikrincə, erməni baş nazir müəyyən məsələlərdə Fransadan dəstək almaq üçün Makronla görüşə xüsusi ümid bəsləyir.

**Paşinyanın Fransa səfərini "Şərq"ə təhlil edən politoloq Turab Rzayev deyib ki, Fransanın Ermənistanla münasibəti rəsmi Parisin Bakı ilə əlaqələrindən tamamilə fərqlənir. Ekspert vurğulayıb ki, Fransada erməni diasporası və elitası çox güclü fəaliyyət göstərir:** "Fransanın idarəetməsində və xarici siyasətində erməni diasporasının əhəmiyyətli rolu var. İki ölkənin bundan sonra daha sıx əməkdaşlıq edəcəyi şübhəsizdir. Ancaq Fransa hökuməti onun da fərqindədir ki, Azərbaycanla təhdid və təzyiq dilində danışmaq qeyri-mümkündür. Rəsmi Paris gördü ki, Azərbaycan tərəfi haqlı mövqeyindən qətiyyən geri çəkilmir. Bakını itirmək istəməyən Makron hökuməti Azərbaycanla dialoqa, ikili münasibətlərin inkişafına üstünlük verməyə başladı. Son aylar Fransa Azərbaycanla Ermənistan arasında sülh prosesinə nail olmağa çalışır və bu yöndə tərəflərə çağırış edir. Məlumdur ki, Paşinyanı Zəngəzur dəhlizi çərçivəsində dəmiryol xəttinin çəkilməsinə və sərhədlərin müəyyənləşməsi prosesinin başlanmasına razı salan da məhz Fransa və Avropa İttifaqıdır. Ermənistan baş nazirinin Fransa səfəri və Makronla görüşü rəsmi Parisin proseslərə baxışını dəyişməyəcək. Ola bilsin, Makron ermənilərə xoş gəlmək üçün yenə nələrsə söyləyəcək, ermənipərəst müəyyən açıqlamalar verəcək. Ancaq bunun Azərbaycan-Fransa münasibətlərinə zərər vuracağını düşünmürəm".

> "Son aylar Fransa Azərbaycanla Ermənistan arasında sülh prosesinə nail olmağa çalışır və bu yöndə tərəflərə çağırış edir"

**İsmayıl Qocayev**

# "Zelenski mövcud vəziyyətdə ən unikal variant təklif edir"

## **Asif Nərimanlı:** "İstisna deyil ki, müharibənin gedişi və vaxt uzandıqca sanksiyaların əyani təsiri Moskvanı "minimum qazanca" məcbur etsin"



**NATO Rusiya ilə qarşıdurmadan ehtiyat edir və Ukraynanı üzvlüyə qəbul etməyə hazır deyil. Bunu Ukrayna Prezidenti Vladimir Zelenski deyib. Ukrayna prezidenti bildirib ki, hərbi alyansın qarşısında diz çöküb yalvarmaq niyyətləri yoxdur. Zelenski vurğulayıb ki, Kiyevi üzvlüyə qəbul etməyə hazır olmadığını anlayandan sonra NATO-dan soyuyub.**

Həmçinin, vurğulayıb ki, Krım və Donbassın "tanınması" məsələsi ilə bağlı Moskva ilə müzakirə aparmaq, insanların yaşamı məsələsində kompromisə gəlmək mümkündür. Zelenskinin açıqlamasına münasibət bildirən Kreml sözçüsü Dmitri Peskov deyib ki, Moskvanın mövqeyi bəllidir. Onun sözlərinə görə, Krım Rusiya "regionudur" və bunu de-fakto və de-yure tanımaq lazımdır: "Luqansk və Donetsk "xalq respublikaları" isə müstəqil dövlətlərdir".

**Siyasi şərhçi Asif Nərimanlı "Şərq"ə bildirib ki, Zelenskinin açıqlamaları Qərbin dəstəyini artırmaq üçün manevr xarakterli deyil. Daha çox Rusiya işğalını dayandırmaq məqsədilə Moskvaya ünvanlanan mesajlardır. Ekspert hesab edir ki, Rusiyanın ağır tələblərindən imtina edəcəyi inandırıcı deyil:** "Ukrayna rəhbərliyi müharibə meydanındakı mövcud vəziyyətdən çıxış edərək, Kremlin şərtlərini dəyişdirə biləcəyi, ən azı "uzunmüddətli atəşkəs"ə razı olacağı ehtimalını dəyərlənirir. Zelenskinin bu təklifi Ukrayna-Rusiya xarici işlər nazirlərinin Türkiyədə keçiriləcək görüşündən öncə irəli sürməsi təsadüfi deyil. Lavrovun martın 10-da Kuleba ilə Antalyada görüşə razı olması da Moskvanın real vəziyyət fonunda şərtlərini müzakirə etmək niyyətindən xəbər verir. Türkiyə masası hər iki tərəf üçün sərfəlidir. Rusiya üçün Fransa və Almaniyanın vasitəçiliyi Qərb cəbhəsi qarşısında "geri çəkilmək", Çinin vasitəçiliyi isə strateji "rəqib" kimi gördüyü bu ölkənin önə çıxması deməkdir. Türkiyə həm Qərb cəbhəsinə qarşı təklənməmək üçün lazımlıdır, həm də regional kartları paylaşa biləcəyi ölkədir. Türkiyə masasında Kiyev kompramisə getsə belə, bunun rusların ağır şərtləri çərçivəsində olmayacağı imkanı böyükdür".

**A.Nərimanlıya görə, Zelenski mövcud vəziyyətdə ən unikal variantı təklif edir:** "Təklif edir ki, ABŞ, Fransa, Almaniya və qonşu Türkiyənin iştirakı ilə Ukraynaya aid kollektiv təhlükəsizlik sazişi imzalansın. Bu, Rusiyanın istədiyi "neytral status"un Kiyevin maraqlarına uyğun olan fərqli forması hesab oluna bilər. Ukrayna NATO-ya inteqrasiya məsələsini arxa plana keçirir, Rusiya hücumdan əl çəkir və adıçəkilən ölkələrin iştirakı ilə onun təhlükəsizliyinə kollektiv zəmanət verilir. Digər yandan Krım və Donbass məsələsində hər iki ölkəni də qane edəcək həll yolu tapılır. Zelenski bildirir ki, "Ukraynanın bir hissəsi olmaq istəyən insanlar orada necə yaşayacaq, özünü Rusiya vətəndaşı kimi görənlər nə düşünür?! Biz Krımı Rusiyanın ərazisi kimi tanıya bilmərik, Rusiya da buranın Ukrayna ərazisi olduğunu etiraf etməyəcək". Mümkündür ki, Kiyevin Krım və Donbass məsələsində güzəşti bu bölgələrdə birgə idarəçilik modelinin yaradılması kimi təklifləri ola bilər. Rusiyanın bunu qəbul edəcəyi ehtimalı zəifdir. Hərçənd, istisna deyil ki, müharibənin gedişi və vaxt uzandıqca sanksiyaların əyani təsiri Moskvanı "minimum qazanca" məcbur etsin. Martın 10-da Türkiyənin vasitəçiliyi ilə keçiriləcək görüşdə müəyyən irəliləyişlər də mümkündür. Lakin rusların masada maksimum istəklərinə nail olmaq üçün hücumların miqyasını artıracağı bəllidir".

**İsmayıl Qocayev**

# Rusiyanın rəsmi orqanları səhvlərə yol verirlər

**Azər Rəşidoğlu:** "Kremlin əsas silahı erməni separatçılarıdır"

**Əhəd Məmmədli:** "Moskva diplomatik üsullarla Azərbaycanı qıcıqlandırmağa, nəyəsə təhrik etməyə çalışır"



**Rusiya Müdafiə Nazirliyinin yaydığı bəyanatda Ukraynaya yardım göstərən ölkələrlə və separatçı rejimlərlə yanaşı, "Dağlıq Qarabağ" ifadəsinin də işlənməsi Azərbaycan hökumətində ciddi narazılıq yaradıb. Azərbaycanın Müdafiə Nazirliyi məsələ ilə bağlı dərhal açıqlama verib və "Dağlıq Qarabağ" ifadəsinin işlənməsinin qəbuledilməz olduğunu bildirib. Vurğulanıb ki, Azərbaycanda "Dağlıq Qarabağ" adlı inzibati-ərazi vahidi yoxdur:**

"Rusiya Federasiyası tərəfindən dəfələrlə ali və yüksək səviyyələrdə verilmiş açıqlamalarda Azərbaycanın ərazi bütövlüyü, suverenliyi və sərhədlərinin toxunulmazlığına dəstək təsdiq edilib. Eyni zamanda iki ölkə arasında imzalanmış müvafiq sənədlərdə də bu mövqe bir daha təsbit olunub. Rusiya Federasiyasının rəsmi mövqeyinə zidd olaraq, bundan əvvəl də müvafiq qurumun rəsmi açıqlamalarında Azərbaycanın suveren ərazilərinə bu adla müraciət edilməsi halları müşahidə olunub. Bu kimi açıqlamalar Azərbaycan-Rusiya əlaqələrinə xələl gətirə və Rusiya sülhməramlı qüvvələrinin müvəqqəti olaraq yerləşdirildiyi Azərbaycan əraziləri boyunca vəziyyətin gərginləşməsinə səbəb ola bilər". Azərbaycan XİN-in məlumatında qeyd olunduğu kimi Rusiyanın rəsmi qurumları əleyhimizə dəfələrlə müxtəlif "səhvlərə" yol veriblər. Bir müddət əvvəl Rusiya Xarici İşlər Nazirliyinin saytında Türkmənçay müqaviləsinin ildönümü ilə bağlı yayılmış açıqlamada Azərbaycan torpaqları "Şərqi Ermənistan" adı ilə təqdim olunmuşdu. Rəsmi orqanların məlumatlarında Xankəndi indiyə kimi "Stepanakert" şəklində yazılmaqdadır. Ekspertlər Moskvanın yanaşmasını, Rusiyanın son vaxtlar post-sovet ölkələrində nümayiş etdirdiyi aqressiv siyasətlə əlaqələndiriblər.

**Politoloq Azər Rəşidoğlu "Şərq"ə bildirib ki, Rusiya Azərbaycana ən böyük təhdid olaraq qalmaqdadır. Analitikin sözlərinə görə, Kremlin əsas silahı erməni separatçılarıdır:** "Moskva 10 noyabr sazişinə əməl etmir, Azərbaycanın ərazi bütövlüyünə hörmətsizlik edir. Düşünürəm ki, bu təhdidlərin qarşısını almaq üçün anti-terror əməliyyatı davam etdirilməli və revanş həsrətində olan separatçıların son qalıqları məhv edilməlidir. Ən əsası isə Türkiyənin hərbi bazaları Azərbaycanda qurulmalıdır. Bakının yeganə strateji müttəfiqi Ankaradır və biz bütün addımlarımızı Türkiyə ilə birlikdə atmalıyıq. Türkiyə ilə ən sıx əməkdaşlıq formulu tapılmalıdır. Rusiya zaman-zaman belə addımlar atır və artıq anlamalıyıq ki, Ankara ilə ən sıx əməkdaşlıq olmasa, bu təhdidlər çoxalacaq".

**AĞ Partiyanın sədr müavini Əhəd Məmmədli "Şərq"ə deyib ki, Rusiya Azərbaycana yönəlik yanlış siyasət yeridir. Partiya təmsilçisi xatırladıb ki, artıq Azərbaycanla Rusiya arasında müttəfiqlik sənədi var:** "Moskva hər fürsətdə rəsmi Bakıya "sataşır". Diplomatik üsullarla Azərbaycanı qıcıqlandırmağa, nəyəsə təhrik etməyə çalışır. Lakin Rusiya indi ehtiyatlı, düşünülmüş addımlar atmalıdır. Xüsusən, qonşulara münasibətdə dostyana davranmalıdır. Çünki az qala bütün dünya Rusiyanı Ukraynada həyata keçirdiyi işğalçılıq siyasətinə görə hədəfə alıb. Ölkə ağır sanksiyalara məruz qalmaqdadır. Azərbaycanı özündən tamamilə narazı salmaq Kremlin maraqlarına cavab vermir. Hesab edirəm ki, belə təxribatlar Rusiyanın Müdafiə və Xarici İşlər Nazirliyində kök salmış erməniyönlü kadrların, anti-türk qüvvələrin də işi ola bilər. Əgər Moskva Bakı ilə münasibətlərin korlanmasını istəmirsə, qurumların rəsmi bəyanatlarına nəzarət etməlidir".

**İsmayıl Qocayev**

# Yaponiya Kuril adalarına görə Ukraynanın yanındadır

## Elxan Şahinoğlu: "Vladimir Putin Tokio ilə danışıqları davam etdirsə də, Kuril adaları məsələsində heç bir addım atmadı"




**Yaponiya ilə Ukrayna arasında hərbi yardımla bağlı sənədin imzalanması beynəlxalq aləmdə maraqla qarşılanıb. Yaponlar ukraynalılara güllələkeçirməz jiletlər, dəbilqələr, çadırlar, qış geyimləri, dərmanlar, generatorlar, kameralar, fövqəladə hallarda istifadə üçün müxtəlif alətlər verəcək. Bu, müasir Yaponiyanın tarixində bir ilkdir.**

Yaponiya İkinci Dünya müharibəsindəki ağır məğlubiyyətindən sonra dünyanın müxtəliq qütblərindəki münaqişələrə qarışmırdı. Ancaq iqtisadiyyatla və dünyaya daha çox məhsul ixrac etməklə məşğul olurdu. Lakin Rusiyanın Ukraynanı işğal etməyə çalışması Yaponiya kimi neytral siyasətə üstünlük verən ölkəni də hərəkətə gətirib. Rəsmi Tokio işğala məruz qalmış Ukraynaya yardım göstərməyə qərar verib. Bu qərardan sonra Moskva Yaponiyanı "dost olmayan ölkələr" siyahısına əlavə edib.

**"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri Elxan Şahinoğlu bildirib ki, Yaponiya başqa ilkə də imza atıb. Analitikin sözlərinə görə, Tokio Ukraynanın işğalı fonunda Qərb ölkələri kimi başda Rusiya Prezidenti olmaqla bu ölkənin müxtəlif rəsmiləri və biznesmenlərinə qarşı sanksiya qərarı verib:** "Sanksiyalar siyahısına həmçinin Rusiyanın 49 idarəsi, bankları və şirkətləri daxildir. Yaponiyanın Baş naziri Fumio Kisida Kuril adalarının cənub hissəsini Yaponiyanın əzəli əraziləri adlandırıb. Vaxtilə Rusiya tərəfindən işğal edildiyini bəyan edib. Baş nazir şimal ərazilərin Yaponiyaya məxsus olduğunu və onların üzərində Yaponiyanın suverenliyinin olduğunu vurğulayıb. Yaponiya İkinci Dünya müharibəsindən sonra keçmiş SSRİ ilə sülh müqaviləsi imzalamadı. Çünki SSRİ Yaponiyanın Kuril adalarını işğal edərək geri qaytarmaq istəmirdi. Moskva 1950-ci illərin ortalarında Tokio ilə belə razılığa gəldi ki, sülh sazişinin müqabilində 4 adadan 2-sini Yaponiyaya qaytara bilər. Ancaq o da baş verən mədi. SSRİ dağıldıqdan sonra Yaponiya Rusiya ilə bu mövzuda danışıqlara başladı. Rusiyanın ilk prezidenti Boris Yeltsin bir ara adaları Yaponiyaya geri qaytarmağa hazır idi. Ancaq Yeltsinin ətrafı onu bu addımdan çəkindirdi. Rusiyada hakimiyyətə gələn Vladimir Putin Tokio ilə danışıqları davam etdirsə də, Kuril adaları məsələsində heç bir addım atmadı. Əksinə, Rusiyanın yeni Konstitusiyasına "ərazi güzəşti qadağan edilir" maddəsi əlavə edildi. Yəni bundan sonra Kuril adalarının Yaponiyaya qaytarılması mümkün deyil, bunun üçün Rusiya Konstitusiyasına düzəliş edilməlidir. Kreml Kuril mövzusunu Tokio ilə müzakirə etmək istəmir".

**E.Şahinoğlu Tokionun Moskva ilə illərdir apardığı danışıqların nəticəsiz qaldığını deyib:** "Bundan başqa Rusiyanın Çinlə qurduğu strateji münasibətlər də Yaponiyanı narahat edir. Çin hərbi gücünü artırır və qonşuları, o cümlədən Yaponiya üçün təhlükə mənbəyinə çevrilib. Moskva Çinin bu siyasətini dəstəkləyir. Belə olan halda Yaponiyanın fəal xarici və təhlükəsizlik siyasəti həyata keçirməsinə ehtiyac yaranıb. Ona görə də Yaponiya Rusiya işğalına qarşı müqavimət göstərən Ukraynaya dəstəyə qərar verib".

**İsmayıl Qocayev**

# Laçın dəhlizi tam nəzarətə alınmalıdır

## Asim Mollazadə: "Terrorçu qrupların fəaliyyətinə birdəfəlik son qoyulmalıdır"



**Nazirlər Kabineti "Laçın dəhlizi"ndən təyinatına zidd olaraq hərbi məqsədlərlə istifadə cəhdləri ilə bağlı bir sıra təşkilat və xarici dövlət orqanlarına məktub ünvanlayıb. Bu məqam Nazirlər Kabinetinin 2021-ci ildə fəaliyyəti haqqında hesabatında əksini tapıb.**

Qeyd olunub ki, Ermənistan 2020-ci il 10 noyabr tarixli üçtərəfli bəyanatı üzrə öhdəliyinə zidd olaraq, öz silahlı qüvvələrini qanunsuz olaraq Azərbaycan ərazilərinə yerləşdirir. O cümlədən, təxribat-diversiya qrupları vasitəsilə addımlar atır. Bu səbəbdən Azərbaycan adından BMT, ATƏT, Avropa Şurası və NATO-nun Baş katiblərinə, ATƏT-in fəaliyyətdə olan sədrinə, BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarına, Aİ-nin Xarici İşlər və Təhlükəsizlik Siyasəti üzrə Ali nümayəndəsinə məktublar göndərilib. Bununla yanaşı, vurğulanıb ki, Ermənistan tərəfindən Azərbaycana qarşı aparılan qarayaxma kampaniyasının və əsassız ittihamların neytrallaşdırılması istiqamətində də beynəlxalq ictimaiyyətin məlumatlandırılması diqqət mərkəzində olub.

**Millət vəkili, Azərbaycan Demokratik İslahatlar Partiyasının sədri Asim Mollazadə "Şərq"ə bəyan edib ki, beynəlxalq təşkilatlar gücün qarşısında aciz olduğunu dəfələrlə nümayiş etdirib.** Deputatın sözlərinə görə, Qərb öz mövqeyini Ukrayna-Rusiya müharibəsində yenidən ortaya qoydu və nəyə "qadir" olduğunu göstərdi: "Azərbaycan Qərbin ədalətsizliyinin, ikili standartlara söykənən mövqeyinin 30 il ərzində dəfələrlə şahidi olub. Söhbət ondan gedir ki, 10 noyabr üçtərəfli bəyanatının şərtləri yerinə yetirilməzsə, Azərbaycanın tam hüququ var ki, Laçın dəhlizini nəzarəti altına alsın. Laçın dəhlizindən öz məqsədləri üçün istifadə edən terrorçu qrupların fəaliyyətinə birdəfəlik son qoyulmalıdır. Sadəcə əvvəlcədən Qərb təşkilatlarına, dünya ictimaiyyətinə xəbərdarlıq edirik, onları məlumatlandırırıq. Son günlər erməni silahlıları yenidən fəallaşıblar. Onlar təxribat törədir, mövqelərimizi atəşə tuturlar. Laçın dəhlizi vasitəsi ilə separatçılara silah-sursat, canlı qüvvələr daşınır. Bunun qarşısını almaq lazımdır və alacağıq".

**İsmayıl**



# Sonsuzluğa son...

## Övlad sahibi olmaq istəyənlərə dövlət yardım edəcək

**Azərbaycanda ekstrakorporal (süni) mayalanma dövlət vəsaiti hesabına həyata keçirilə bilər. Bu barədə Milli Məclisin Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov açıqlama verib. Komitə sədri bildirib ki, süni mayalanma yaxın vaxtlarda icbari tibbi sığorta üzrə Xidmətlər Zərfinə daxil ediləcək. İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin İdarə Heyətinin sədri Zaur Əliyev də KİV-ə açıqlamasında qeyd edib ki, sonsuzluğun müalicəsi icbari tibbi sığorta üzrə xidmətlər zərfinə daxil edilə bilər.**

Sonsuzluğun müalicəsi hələki xidmətlər zərfinə daxil edilməyib. Amma bu, gələcəkdə xidmətlər zərfinə daxil ediləcək: "Bu artıq nəzərdə tutulub. Amma uşaqla bağlı hər hansı xəstəliklərin müalicəsi, əməliyyatlar xidmətlər zərfində var", - deyə Z.Əliyev vurğulayıb.

**Məsələ ilə bağlı "Şərq"ə danışan həkim-ginekoloq Fəxranə Hüseynzadə qeyd etdi ki, süni mayalanmanın icbari tibbi sığorta paketinə daxil edilməsi müsbət addım olacaq:**

- Azərbaycan mentalitetində övlad ailənin təməli sayılır. Sonsuzluq problemi ailə dramlarının yaşanmasına, qadın-kişi münasibətlərinin gərginləşməsinə, hətta boşanmalara, ailələrin dağılmasına səbəb olur. Ona görə də dövlətin bu məsələdə ailələrə dəstək olması müsbət addımdır. Ekstrakorporal mayalanma özlüyündə bahalı əməliyyatdır. Molekulyasiya, müxtəlif prosedurlar, dərman preparatlarının qiyməti yüksəkdir. Məlumdur ki, hər ailənin buna maddi imkanı çatmır. Sonsuzluq problemi ilə üzləşmiş ailələr həm də bu səbəbdən övlad sahibi ola bilmirlər. Sonsuzluğun müalicəsinin dövlət proqramına salınması, icbari tibbi sığorta zərfinə aid edilməsi bu mənada, həm övlad həsrətində olan ailələrə sevinc bəxş edəcək, həm də ailələrimizin möhkəmliyinin qorunmasına yardım etmiş olacaq.

**F.Hüseynzadə qeyd etdi ki, süni mayalanma icbari tibbi sığorta paketinə daxil ediləcəyi təqdirdə, bir sıra şərtlərin nəzərə alınması mütləqdir:**

- Yaqin ki, bu problemin həllində bir sıra nüanslar, şərtlər də nəzərə alınacaq. Məsələn, qadınların, yaxud kişilərin yaş həddi, sağlamlıq göstəriciləri, sonsuzluq müddəti nəzərə alınmalıdır. Bu gün evlənib, sabah süni mayalanma ilə övlad sahibi olmaq üçün müraciət edilsin, əlbəttə, bu, yolverilməzdir. Sonsuzluğun müddəti var, ailə həyatının hansı mərhələsində qadın və ya kişi sonsuzluq problemi ilə üzləşir, bunun konkret kliniki göstəriciləri var. Dövlət hesabınadır deyə, kim istədi, süni mayalanma üçün müraciət edə bilməz. Əgər belə olsa, hamı süni mayalanma arzulayar. Rahatdır, pulsuzdur deyə. Bu isə yaxşı hal deyil. Ona görə də bu məsələdə mütləq konkret şərtlər müəyyənləşməlidir. Sonsuzluq tibbi diaqnozdur. Bunun müxtəlif səbəbləri, pataloji hallar mövcud ola bilər. Sonsuzluq xəstəlik deyil, çünki insan həyatına fiziki məhdudiyyət yaratmır. Sağlamlığa təsir etmir. Sonsuzluğun səbəbləri müəyyənləşməlidir ki, nədən baş verdiyi bilinsin və ona qarşı müalicə aparılsın.

*Süni mayalanmanın icbari tibbi sığorta paketinə daxil edilməsi müsbət addım olacaq*

**F.Hüseynzadə qeyd etdi ki, hazırda dövlət tibb müəssisələrində, yerli poliklinikalar, qadın məsləhətxanalarında müayinələr ödənişsizdir. Yeni ailə qurulduqdan 6 ay - 1 il müddətində hamiləlik baş verməsə, cütlük həkimə müraciət etməli, sonsuzluq problemi olub-olmaması müəyyənləşməlidir:**

- Poliklinikalarda, dövlət xəstəxanalarında müayinə olunmaq, bir sıra analizlərdən keçmək mümkündür. Hansısa xidmət növü dövlət müəssisəsində olmadıqda pasiyentlər özəl tibb müəssisələrinə göndərilirlər. Yaxşı olar ki, gələcəkdə özəl tibb müəssisələrində də məhz sonsuzluq problemi ilə bağlı müraciət edənlərə müayinələr, analizlər ödənişsiz həyata keçirilsin. Ümid edək ki, yaxın zamanda bu xidmətlər də icbari tibbi sığorta paketinə əlavə edilər.

**Məlahət Rzayeva**

# Bayram yarmarkalarında keyfiyyət aşağı, qiymət bahadır

## Mağazadakı 12 manatlıq səməni yarmarkada 13 manata satılır

**Orta Asiyadan Balkanlaradək geniş bölgədə qeyd olunan Novruz bayramı yazın gəlişinin təmtəraqlı qarşılanma mərasimidir. "Nov" və "ruz" sözlərinin birləşməsindən əmələ gələn bu söz "yeni gün" mənasını daşıyır.**



Azərbaycana da Novruz gəlir. Yeniləşmə, ruhun təzələnməsi olan bu türk gələnəyinə bəzən Bahar bayramı da deyənlər var.

Havalar isinməyə, qar əriməyə, ağaclar çiçəklənməyə, torpaq yaşıllaşmağa, köçəri quşlar yuvalarına qayıtmağa başlayır. Ona görə də martın 21-i bütün varlıqlar üçün diriliş günü kimi qəbul olunur. Novruzu azərbaycanlılar, qazaxlar, qırğızlar, türkmənlər, özbəklər, tatarlar, uyğur türkləri, Anadolu türkləri və Balkan türkləri qeyd edirlər. Bu bayram 2009-cu il sentyabrın 30-da YUNESKO tərəfindən qeyri-maddi mədəni irs siyahısına daxil edilib.

Azərbaycan xalqı Novruzu xüsusi təntənə ilə qarşılayır. Bütün evlərdə səməni göyərdilir, şəkərbura, paxlava bişirilir. Qapıya papaq atılanda da şirniyyatla doldurulub geri qaytarılır. Şirniyyatları isə qozsuz, ləpəsiz təsəvvür etmək mümkün deyil. İnsanları isə daha ucuz, amma keyfiyyətli məhsullar əldə etmək maraqlandırır. Hər il Bakı Şəhər İcra Hakimiyyəti tərəfindən metro stansiyaları yaxınlığında qurulan bayram yarmarkalarında qiymətlərin sərfəli olduğu aydındır. Bazarlarda və yarmarkalarda qiymət fərqini öyrənmək üçün "İnşaatçılar" metrosu yaxınlığındakı yarmarkalardan birinə baş çəkdik.

Əvvəlcə iş rejimi ilə maraqlandıq. Məlum oldu ki, yarmarka səhər saat 8-də açılır, axşam saat 10-da bağlanır. Satıcılardan biri bildirdi ki, yarmarka martın 21-nə qədər fəaliyyət göstərəcək.

**Satıcı Şəmmədov Nahid bu il bolluq olduğu üçün malların ucuz qiymətə satıldığını söylədi:**

"Qiymətlər sərfəlidir. Alıcımız da kifayət qədər var. Burada qoz, ləpə, fındıq satırıq. Səməni, keçəl, kosa, gəlinciklər və müxtəlif oyuncaqlarımız da var. Oyuncaqların qiyməti 50 qəpik 4 manat arasında dəyişir. Xonçalarımız da var, qiyməti 3 manatdır. Səmənilərin qiyməti isə 50 qəpikdən başlayır. Ən bahalı səməni 13 manatdır".

**Alıcı Fəzilə Əmirxanova yarmarkada qiymətlərin normal olduğunu dedi:**

"Özüm təqaüdçüyəm. Cibimə uyğun alış-veriş edirəm. Yarmarkadakı qiymətlər sərf edir".

**Alıcı Şamil Qafarov isə qiymətlərdən razı olduğunu söyləyir:**

"Marketlərə nisbətən burada qiymətlər yaxşıdır. Məhsullar ucuzdur".

*Qiymətlərin həqiqətən ucuz olub-olmadığını öyrənmək üçün digər mağazaları da ziyarət etdim. Mağazaya girən kimi yarmarkada olan eyni səməni gördüm. Qiyməti soruşduqda öyrəndim ki, yarmarkada 13 manat olan səməni burada 12 manat imiş. Məlum oldu ki, yarmarkada qiymət daha bahadır. Vəziyyət aydındır. Deməli, bayram üçün qurulan yarmarkalarda qiymətlər təqdim olunduğu kimi o qədər də sərfəli deyil.*

**Xanlar Əlibəy**

# "Dilqəm "Qızıl at"ın belindədir, mənə nə kömək edəcək?"

## Şahbaz Quliyev: "Mənim siqaret almağa pulum yoxdur"



**Bu dəfə qonağımız Şahbaz Quliyevdir. Onunla söhbətimiz zamanı məlum oldu ki, problemləri başından aşır. Qeyd edək ki, Şahbaz Quliyev 2014-cü ilin iyul ayında erməni terrorçuları tərəfindən girov götürülüb və 2020-ci ilin dekabr ayında girovluqdan azad edilib. O, "Şərq"ə açıqlamasında şikayətlərini dilə gətirib.**

**- Səhhətiniz necədir?**

- Müalicəm davam edir. Qalan məsələlərdə isə vəziyyət "köhnə hamam, köhnə tas"dır. İndiki durumum acından ölməyə bərabərdir. Evdə işıq, qaz yanmır. Bununla heç maraqlanan varmı? Deyən varmı ki, bu adam nə yeyir, nə içir? Erməni məhbusluğundan qayıdandan bəri şalvarımı dəyişməmişəm.

**- İşlə təmin olunmaq üçün hansısa qurumlara müraciət etmisiniz?**

- Hər yerə müraciət etmişəm, cavab vermirlər. Bacı-qardaşım sağ olsun, dolanışığıma yardım edirlər. Qaradağ icra hakimiyyəti 1 ildir "başımın altına yastıq qoyub", yalandan maaş kartı verəcəyini söyləyir, amma vermirlər. Prezidentə də müraciətlər ünvanlamışam. "Qaçqınkom"a, əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Komissiyaya da yazmışam.

**- Müraciətlərinizə nə cavab verilir?**

- Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi "düzüb - qoşacağıq" söyləyirlər. Qaradağın icra hakimiyyətinin müavini hər ay zəng edir ki, 3 günə sənə kart veriləcək. 1 il 3 aydır, hələ də verir. İndi də zəng edəndə başqasına müraciət etməyimi vurğulayır.

**- Veteranlıqla bağlı da müraciət etmişdiniz. Necə oldu?**

- Məhkəməyə getmişdim. Veteranlara da iş vermirlər. Məhkəmədə "müharibə" gedir. "Papanin"dəki arxivə baxırlar. Məhkəmə 1-2 aydan sonra xəbər edəcəyini söyləyir. İndi də vaxtı aprelin 28-nə ertələyiblər. Başlarından edirlər. Müdafiə Nazirliyindən polkovnik gəlib, heç adamı da tanımır. Deyir, biz qanuna müvafiq davranırıq. Sosial yardım üçün də Paşinyandan 10 il həbsdə olmağımla bağlı əmək kitabçası alıb, gətirməyimi istəyirlər, komediyadır.

*"Erməni məhbusluğundan qayıdandan bəri şalvarımı dəyişməmişəm"*

**- Sizinlə eyni vaxtda girov götürülən Dilqəm Əsgərov kömək göstərirmi?**

- Dilqəm "Qızıl at"ın belindədir, mənə nə kömək edəcək? Onun bu dəqiqə "Land Cruiser" markalı avtomobili, imarəti

**- O da sizinlə bərabət həbsdə idi. Bunu necə əldə etdi?**

- Həmin vaxt ona yalançı sənəd düzəltdilər. Guya, torpaq özünün olub, 150 min pul veriblər. Mənimkilər də vardövlətimi satıb yeyib. 50 minlik malım, 20 minlik "Mercedes"im də satılıb. İndi də deyirlər Vətən uğrunda getmişən.

**- İkinci dəfə ailə həyatı qurdunuz. İlk evliliyinizdən olan qızınızla əlaqə saxlayırsınızmı?**

- Anası ilə birlikdə Rusiaya gediblər. Gəlməsi üçün yol pulu tapıb göndərə bilmədim. Heç özümə siqaret pulu tapa bilmirəm. Arada yazır, kömək etməyimi istəyir. Mən bu tayda, o da o tayda qalıb.

**Aygün Tahir**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində qazanılmış tarixi qələbə, Ermənistan tərəfindən törədilmiş sülh və insanlıq əleyhinə cinayətlər, habelə müharibə cinayətləri ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması;**



# Qarabağda müharibə yox, sülh olmalıdır

## Ceyhun Məmmədov: “Əfsuslar olsun ki, Ermənistan yenə də təxribatçı hərəkətlərindən əl çəkmir”

**Azərbaycan Xarici işlər naziri Ceyhun Bayramov türkiyəli həmkarı Mövlud Çavuşoğlu ilə birgə keçirdiyi mətbuat konfransında Ermənistanla sülh müqaviləsinin imzalanması prosesindən danışıb. Nazir qeyd edib ki, Azərbaycan regionda sülh və sabitliyin bərqərar olmasının tərəfdarıdır. C.Bayramov vurğulayıb ki, bu imkanlar Ermənistan üçün bir fürsətdir və Ermənistan hərbi-siyasi rəhbərliyi bu fürsətdən necə istifadə etmək barədə qərar verməlidir.**

Nazir onu da əlavə edib ki, Ermənistanla münasibətlərin normallaşması məsələsində Azərbaycan və Türkiyə arasında tam koordinasiya var. Ceyhun Bayramovun məlum açıqlamasından sonra Ermənistan Xarici İşlər Nazirliyinin mətbuat katibi Vaan Unanyan rəsmi İrəvanın sülh müqaviləsi imzalamağa hazır olduğunu söyləyib. Uhanyanın sözlərinə görə, Azərbaycanla sülh müqaviləsinin imzalanması hökumətin gündəliyində dayanan prioritet məsələlərdən biridir: ”Biz Ermənistan və bütün region üçün dinc inkişaf dövrünün başlanması strategiyasını qəbul etmişik. Bu istiqamətdə addımlar atmağa hazırıq. Digər tərəfdən, regional kommunikasiyaların açılması da prioritet istiqamətlərdən biridir. Bu istiqamətdə də müxtəlif işlər görülür”. Bir müddət öncə Ermənistanın Ərazi idarəetməsi və infrastruktur naziri Qnel Sanosyan da bildirmişdi ki, İrəvanda Zəngəzur dəhlizinin bu ölkədən keçən hissəsinin tikintisinin başlaması məqsədilə maliyyə vəsaitinin ayrılması barədə qərar qəbul edilib. Onun sözlərinə görə, dəhlizin 43 kilometrlik hissəsində təmir-bərpa işləri aparılacaq.

Azərbaycan hökumətinin illik hesabatında da bildirilib ki, şanlı qələbəmizlə başa çatan 44 günlük müharibədən sonra ölkəmiz öz nəqliyyat-kommunikasiya, logistika imkanlarını genişləndirmək baxımından əlverişli fürsət əldə edib: ”Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin bilavasitə təşəbbüsü ilə gündəmə gələn Zəngəzur dəhlizi Azərbaycanın həm tarixi nailiyyəti, həm də böyük siyasi qələbəsidir. Hesabat dövründə Zəngəzur dəhlizinin gerçəkləşməsi üçün əməli addımlar atılıb və onun fəaliyyəti üçün müvafiq tədbirlər davam etdirilməkdədir”. Prezident İlham Əliyev ötən ay Rusiya KİV rəhbərləri ilə keçirilən görüşündə Bakı ilə İrəvan arasında münasibətlərin normallaşacağına inandığını bildirmişdi. Ölkə rəhbəri diqqətə çatdırmışdı ki, Bakı Ermənistanla sülh müqaviləsi bağlamaq istəyini dəfələrlə rəsmən bəyan edib: ”Yəqin ki, bu, müəyyən mərhələdə baş verəcək, lakin indiki geosiyasi reallıqlarda biz realist olmalıyıq, mümkün olmayanı arzulamamalıyıq, əksinə, Qafqazda davamlı sülhün bərqərar olmasına doğru irəliləməliyik”. Dövlət başçısı qeyd etmişdi ki, 2020-ci il noyabrın 10-da Qarabağda hərbi əməliyyatların tam dayandırılması ilə bağlı birgə bəyanat imzalanıb və həmin sənədə əsasən, Azərbaycan və Ermənistan tərəfləri öz mövqelərində dayanıb: ”Bir sıra rayonlar Bakının nəzarətinə keçib, təmas xətti və Laçın dəhlizi boyunca Rusiya sülhməramlıları yerləşdirilib. 2021-ci il yanvarın 11-də Moskvada Rusiya Federasiyası, Ermənistan və Azərbaycan liderlərinin görüşü baş tutub. Orada yeni birgə bəyanat imzalanıb, bu sənəd digər məsələlərlə yanaşı, regionda bütün iqtisadi və nəqliyyat kommunikasiyalarının blokadadan çıxarılmasını nəzərdə tutur. Eyni zamanda, bu və digər vəzifələrin həlli üçün baş nazirin müavinləri səviyyəsində üçtərəfli işçi qrupunun yaradılması barədə razılıq əldə olunub. 2021-ci il noyabrın 26-da liderlər Soçidə yenidən görüşdülər. Biz Azərbaycan-Ermənistan sərhədində sabitliyin və təhlükəsizliyin səviyyəsinin yüksəldilməsi üçün müvafiq addımlar atmaq barədə razılığa gəldik. Həmçinin sərhədlərin demarkasiyası ilə delimitasiyası üçün ikitərəfli komissiyanın yaradılmasının zəruriliyini şərtləndirdik. Rusiya bu məsələdə tərəflərə məsləhətçi yardım göstərir”.

Ermənistanla sülh müqaviləsinin imzalanması və kommunikasiyaların açılması prosesini dəyərləndirən əksər ekspertin fikrincə, dünyada baş verən təlatümlər Azərbaycan üçün o qədər də ciddi təhlükə yaratmır. Əksinə, cərəyan edən proseslər Zəngəzur dəhlizinin əhəmiyyətini daha da artırır. Şərqlə-Qərb arasında yaranan iqtisadi-siyasi uçurum, münaqişə ölkələri arasında ticarət əlaqələrinin iflic olması Azərbaycanın tranzit imkanlarını daha qabarıq şəkildə önə çıxarır. Zəngəzur dəhlizinin açılması nəinki Azərbaycan, digər maraqlı ölkələr üçün də inanılmaz iqtisadi dividendlər deməkdir. Ancaq bunun reallaşması İrəvan hökumətinin üzərinə düşən öhdəliyə qeyd-şərtsiz əməl etməsindən, kommunikasiya və sülh müqaviləsi ilə bağlı prosesə start verməsindən asılıdır.

### "İnanıram ki, 2022-ci ildə Ermənistan tərəfi az da olsa müəyyən məsafəni qət edəcək"

**Millət vəkili Ceyhun Məmmədov ”Şərq”ə açıqlamasında bildirib ki, Bakının bəyanatlarına İrəvanın pozitiv açıqlamalarla qarşılıq verməsi müsbət tendensiyadır. Lakin deputat Ermənistan tərəfinin quru bəyanatlarla kifayətlənməməsini, əməldə də mövqeyini sübut etməsinin zəruri olduğunu vurğulayıb:** ”Əfsuslar olsun ki, Ermənistan yenə də təxribatçı hərəkətlərindən əl çəkmir. Xarici ölkələrdəki erməni diasporası Azərbaycan əleyhinə təbliğatla məşğul olur. Guya, Qarabağı ”işğal” etmişik, oradakı ermənilərin həyatına ”təhlükə” yaratmışıq və s. Əlbəttə, bunların hamısı absurd yalanlardır, heç birinin əsası yoxdur. Amma bütün bunların fonunda Ermənistanla danışıqlar getməlidir. Məqsədimizə çatmaq naminə bütün addımları atırıq və bundan sonra da atacağıq. Ermənistandan gözləntimiz odur ki, İrəvan könüllü şəkildə öz öhdəliklərini yerinə yetirsin. Əgər Ermənistan rəhbərliyi imza atdığı üçtərəfli sazişin müddəalarına əməl etməkdən boyun qaçırarsa, Azərbaycan İrəvanı buna məcbur etməlidir. Sərhəddə və Qarabağda törətdilən təxribatlara son qoyulmalı, Azərbaycan əleyhinə təbliğat durdurulmalıdır. Münasibətlərin normallaşmaması və kommunikasiyaların bərpa edilməməsi ilk növbədə erməni xalqının ziyanınadır. İnanıram ki, 2022-ci ildə Ermənistan tərəfi az da olsa müəyyən məsafəni qət edəcək. Buna nail olmaq üçün yumşaq güc tətbiq etməklə yanaşı, hərbi əməliyyatlardan da istifadə edə bilərik”.

**İsmayıl Qocayev**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub



# Heç kəs müharibənin bu qədər dəhşətli olacağını gözləmirdi

## Gürcüstana üz tutacaq Rusiya vətəndaşlarının sayı daha da artacaq

**Fevralın 24-dən, Ukraynada müharibə başlayandan 13 gün ərzində Gürcüstana 20 mindən bir qədər çox Rusiya vətəndaşı gəlib. Bu barədə Gürcüstanın Daxili işlər naziri Vaxtanq Qomelauri jurnalistlərə bildirib.**

Rusiya ilə müvəqqəti viza rejiminin tətbiq olunub-olunmayacağı ilə bağlı suala cavabında V.Qomelauri bu məsələnin onun səlahiyyətlərinə aid olmadığını deyib.

Rusiya vətəndaşlarının xarici ölkələrə, eləcə də Gürcüstana üz tutmasının səbəblərindən biri də hazırda davam edən müharibədir. Bəzi vətəndaşlar daxildə yaranmış vəziyyətə qarşı etiraz edir, küçələrə çıxır, bəziləri isə ölkəni tərk edirlər. Müharibə zamanı ölkə vətəndaşlarının üz tutduğu ilk yer məhz qonşu ölkələr olur.

Bununla yanaşı, Rusiyada bu ölkənin vətəndaşlığını qəbul etmiş yüz minlərlə gürcü var.

**Rusiya vətəndaşlarının Gürcüstana üz tutması ilə bağlı ”Şərq”ə danışan politoloq Əlimusa İbrahimovun sözlərinə görə, müharibə artıq proqnozları da alt-üst edib:**

”Heç kəs vəziyyətin bu qədər ciddi olacağını və müharibənin uzun çəkəcəyini gözləmirdi. Elə hesab olunurdu ki, sərhədə yığılan təqribi 170 minlik rus ordusu Ukraynanı məğlub etməyə kifayət edəcək. Putinin dediyinə görə, 48 saata Kiyevi tutmalı idi. Ancaq müharibə başlayanda verilən proqnozların heç biri özünü doğrultmadı. Bütün bunların nəticəsində Rusiyaya tətbiq olunan sanksiyalar gün keçdikcə ağırlaşdırılır. Eyni zamanda Ukrayna mənbələrinin verdiyi məlumata görə, ruslar hər gün minə yaxın əsgər və zabit itkisi verir. Belə davam etsə, rus ordusu tükənəcək və darmadağın olacaq. Bu zaman dövlət müharibəyə yeni qüvvələr göndərməyə məcburdur. Gürcüstana gedən insanların əksəriyyəti məhz orduya qoşulmaqdan çəkinən və döyüşmək istəməyən insanlardır. Əks halda onlar Rusiya vətəndaşları olduqları üçün müharibədə iştirak etməyə məcbur qalacaqlar. Bəziləri isə ümumiyyətlə müharibəyə qarşı olanlardır. Ruslarda müharibəyə qarşı çox güclü etiraz var.

Digər bir qisim vətəndaşlar ölkədə yaranmış vəziyyətdən narazıdırlar. Onlar qısa müddət ərzində ölkəni xaosun, aclığın bürüyəcəyini düşünürlər. Buna görə buradan qaçırlar. Gürcüstanda nisbətən vəziyyət yaxşı olduğu üçün oraya gedirlər. Müharibə uzandıqca Rusiyadan qaçan və Gürcüstana gələn insanların sayı daha çox olacaq”.

**Sənan İsmayıl**

# "İnternet üzərindən narkotik satışını həyata keçirənlər az deyil"

## Qanun sərtləşdirilsə də onların qarşısını tam almaq mümkün deyil



**Sosial şəbəkələr üzərindən narkotik maddələrin təbliğinin, satışının həyata keçirilməsi hallarını tez-tez müşahidə edirik. Narkotik maddələrin internet üzərindən satışını önləmək üçün cinayət məcəlləsinə dəyişiklik təklif olunub.**

Dəyişikliyə görə, narkotik vasitələri və psixotrop maddələri internet üzərindən satanlar 5 ildən 12 ilədək müddətə azadlıqdan məhrumedilmə ilə cəzalandırılacaq. Zəhərli maddələrin satış məqsədilə qanunsuz dövriyyəsi ilə məşğul olanları isə 10 il həbs gözləyir.

**Cinayət məcəlləsinə edilən dəyişikliklə bağlı ”Şərq”ə danışan hüquqşünas Ələsgər Məmmədli bildirib ki, narkotik satışının qarşısını almaq çətindir:**

”Hamımız bilirik ki, narkotik vasitələrin dövriyyəsi qadağandır. Amma zərərli maddələri satanların qarşısını almaq praktikada mümkün olmur. Belə adamlar hər yola əl atır. İnternet üzərindən satış həyata keçirənlər də az deyil.

Bunun qarşısının alınması üçün müəyyən addımlar atılır. Məsələn, onlar istifadə etdikləri elektron vasitənin İP-si üzərindən rahatlıqla izlənilirlər. İnternet olmazsa, gedib başqa yol tapacaqlar.

Cəzalandırma üçün cinayət məcəlləsində konkret hökmlər yoxdur. Ona görə də, hakim vəziyyəti qiymətləndirərək cəza verir.

Onların əvvəllər məhbus olub-olmadıqları, təhlükənin dərəcəsi ölçülür”.

**Xanlar Əlibəy**

# "Minlərlə erməni terrorçusu torpaqlarımızdadır"

## Elman Məmmədov: “Rus hərbçilər ermənilərdən daha çox günahkardır”



**Rusiya sülhməramlıların nəzarəti altında olan ərazilərimizdə təxribatla məşğul olan qanunsuz erməni hərbi birləşmələrinin dərsi verilib. Müdafiə Nazirliyinin məlumatına görə, erməni quldurlarının təxribatlarının qarşısını almaq məqsədilə Ordumuz adekvat cavab tədbirləri görüb. Qanunsuz erməni silahlı dəstələrinin mövqeləri dəqiq zərbələrlə məhv edilib.**

Xüsusi olaraq vurğulanıb ki, terrorçuların zərərsizləşdirilməsi zamanı mülki infrastruktur hədəf alınmayıb. Yalnız qanunsuz erməni silahlı dəstələrinin mövqelərinə dəqiq zərbələr endirilib. Xatırladaq ki, martın 8-9-u torpaqlarımızdakı qanunsuz erməni silahlıları Xocalı və Goranboy rayonlarında yerləşən mövqelərimizi müxtəlif çaplı atıcı silahlardan fasilələrlə atəşə tutublar. Ümumiyyətlə, erməni terrorçuları bir neçə dəfə Azərbaycan Ordusunun bölmələrini hədəf seçiblər. Hətta qanunsuz silahlı dəstələrin təxribatı nəticəsində yaralanan, şəhid olan hərbçilərimiz də var. Ekspertlərin fikrincə, rus hərbçilərinin fəaliyyəti ”sülhməramlılıq” yox, erməni hərbi birləşmələrini təmin etmək və fəallaşdırmaqdır. Məqsəd isə müəyyən məqamlarda erməni quldurlarını Azərbaycana qarşı mümkün təxribatlara sövq etməkdir. Analitiklər hesab edirlər ki, dəfələrlə edilən xəbərdarlığa məhəl qoymadan ermənilərin Azərbaycan mövqelərini atəşə tutması və ”sülhməramlı”ların da buna seyirçi qalması genişmiqyaslı anti-terror əməliyyatlarına başlamaq üçün tam yetərli şərtdir.

**Millət vəkili Elman Məmmədov ”Şərq”ə açıqlamasında bildirib ki, üçtərəfli sazişlərə və Azərbaycan-Rusiya arasında imzalanmış müttəfiqlik sənədə əsasən, dövlətlərin ərazi bütövlüyünə, təhlükəsizliyinə təhlükə yaradan ünsürlər dərhal aradan qaldırılmalıdır.** Deputat diqqətə çatdırıb ki, müharibənin başa çatması ilə nəticələnən 10 noyabr üçtərəfli sazişinin müvafiq maddəsinə görə, erməni silahlı birləşmələri Azərbaycan torpaqlarını qısa müddətdə tərk etməli idilər. Bu işin icrası da rus ”sülhməramlı”larına tapşırılmışdı: ”Bəyanata görə, Qarabağa yerləşdirilən rus hərbçiləri erməni quldurlarının əlindəki silah-sursatı, hərbi texnikanı müsadirə etməli, terrorçu ünsürləri ərazidən təmizləməli idilər. Müharibənin başa çatmasından il yarım ötsə də, minlərlə erməni qulduru hələ də torpaqlarımızdadır. Zamanla onların tərkibini dəyişir, mülki geyimdə erməni terrorçuları Xankəndinə, Xocalıya gətirirlər. Ola bilməz ki, Rusiya ”sülhməramlı”ları bundan xəbərsizdir. Bütün hadisələr rusların gözü qarşısında, hətta onların himayəsi ilə baş verir. Azərbaycan tərəfi suveren hüquqa dayanaraq öz qanuni torpaqlarında erməni terrorçularına, separatçılara qarşı hərbi əməliyyatlar keçirir. Heç kimin buna görə bizə irad bildirməyə ixtiyarı, səlahiyyəti yoxdur. Daxili məsələmizə görə kimdənsə icazə almalı deyilik. Azərbaycan Ordusunu Qarabağda ”təmizləmə” işinə məcbur edən tərəf məhz Rusiyanın burada yerləşdirdiyi ”sülhməramlı” kontingentidir. Rus hərbçilər ermənilərdən daha günahkardır. Erməni terrorçularına ”xeyir-dua” verən rus hərbçiləridir. Rəsmi Bakı öz narazılığını, etirazını Moskvaya dəfələrlə bildirib. Heç bir dövlət razı olmaz ki, ərazisində separatçı, silahlı qüvvələr fəaliyyət göstərsin”.

*Parlament üzvü vurğulayıb ki, Azərbaycan ərazisində faktiki Ermənistanın hərbi birləşmələrinin müəyyən hissələri qalmaqdadır:* ”Rusiya ”sülhməramlı”ları separatizmin qarşısını almaq əvəzinə terrorçuları silahlandırır və təşkilatlandırır. Rusların icazəsi və məlumatı olmadan erməni quldurları torpaqlarımızda səngər qaza bilərmi?! Qanunsuz erməni silahlılarının Qarabağda sərbəst fəaliyyəti və rusların buna göz yumması ölkəmizin suverenliyinə təhdiddir. Son terrorçu təmizlənənədək hərbi əməliyyatları davam etdirməliyik. O ki qaldı, Xankəndi və ətraf bölgələrdə yaşayan erməni əhalisinə, ordumuz 44 günlük müharibə dövründə belə mülki insanların həyatına təhlükə yaratmayıb. İndi də hərbçilərimizin hədəfində mülki, silahsız ermənilər yox, qanunsuz silahlı dəstələrin mövqeləridir”.

**İsmayıl Qocayev**

# Bayram ərəfəsi bazarlarda qiymətlər yenə də süni qaldırılır

## Nazim Bəydəmirli: ”Məmur sahibkarlığı müxtəlif bazar instrumentlərini kənarlaşdıraraq, inhisarçılıq yaradır”



**Novruz bayramına sayılı günlər qalıb. Artıq bazarlarda və marketlərdə cürbəcür bayram atributları və məhsullarının satışı genişlənir.**

Lakin qiymətlərin çox baha olması cəmiyyətdə narazılıqla qarşılanır. Artan qiymətləri qoz-fındıqdan mövsüm meyvələrinə qədər bütün məhsullarda hiss etmək mümkündür.

**Bayram öncəsi süni qiymət artımları ilə bağlı ”Şərq”ə danışan iqtisadçı-alim Nazim Bəydəmirli bildirib ki, Azərbaycanda süni qiymət artımı yaradan qurum sahibkarların idxal etdiyi məhsullara bəyannamə qiyməti tətbiq edən Dövlət Gömrük Komitəsidir:** ”Tətbiq etdikləri bəyannamə qiymətləri real qiymətdən fərqli olur və daha çox vergi və rüsum toplamaq üçün addımlar atılır. Eyni zamanda, Azərbaycanda olan məmur sahibkarlığı müxtəlif bazar instrumentlərini kənarlaşdıraraq, inhisarçılıq yaradır. Bu da qiymətlərin bahalaşmasına gətirib çıxarır”.

İqtisadçı süni qiymət artımını tənzimləməyin yollarını sadalayıb:

”Bazar iqtisadiyyatında dövlətin inzibati resurslarla müdaxilə etmək vəzifəsi yoxdur.

Ancaq belə vəziyyətləri yaradan dövlətin tarif siyasəti də olur. Son iki ildə Azərbaycanda qiymət artımı çox ciddi şəkildə davam edir. 2022-ci ilin birinci rübündə də qiymətlər artır.

Belə vəziyyətin aradan qaldırılması üçün təbii ki, iqtisadi fəaliyyət stimullaşdırılmalı, sahibkarlığın daha azad şəkildə fəaliyyət göstərməsi üçün şərait yaradılmalı və idxal inflyasiyası çox olduğuna görə onların vergiləri azaldılmalıdır. Yəni başqa ölkələrin təcrübəsi onu göstərir ki, qiyməti stabil saxlamaq və ya ciddi artımın olmaması üçün hökumətlər gömrük rüsumlarını tamamilə və yaxud qismən aradan qaldırırlar.

Tarifləri normal saxlamaq və gömrük fiskal siyasətini aşağı endirmək hökumətin əlində olan instrumentlərdir. Bunu etməyənə qədər şikayətlər olacaq. Həm də insanların daha çox qazanmasına şərait yaratmaq lazımdır və bu da hökumətin borcudur”.

**Çimnaz Şahlar**

# Gənc qadını hissələrə ayırdılar…

## Mehriban Zeynalova: “Bu qadın cinayətinə oxşamır”

**Ötən günlərdə Qəbələ rayonunda zibil yeşiyindən gənc qadının hissələrə ayrılmış meyiti tapılıb. Meyitin1999-cu il təvəllüdlü Aytac Əliyevaya məxsus olduğu bəlli olub. Araşdırma zamanı Qəbələ rayonu ərazisində Kemale Maksumbekovanın 2008-ci il təvəllüdlü azyaşlı oğlu ilə birlikdə şəxsi münasibətlər zəminində A.Əliyevanın baş nahiyəsinə daşla xəsarət yetirdikdən sonra yapışqanla baş və boyun nahiyəsini bağlaması nəticəsində boğularaq ölməsinə əsaslı şübhələr müəyyən edilib.**

Faktla bağlı Qəbələ rayon prokurorluğunda Cinayət Məcəlləsinin 120.1-ci (qəsdən adam öldürmə) maddəsi ilə cinayət işi başlanıb. Kemale Maksumbekova şübhəli şəxs qismində tutularaq istintaqa cəlb edilib.



**”Təmiz Dünya” İctimai Birliyinin sədri Mehriban Zeynalova hadisə ilə bağlı ”Şərq”ə danışarkən bildirib ki, belə bir əməl törətmək üçün ağır qatil olmaq lazımdır və bu qadın cinayətinə oxşamır:** ”Hadisə ilə əlaqədər hansısa fikir söyləmək həqiqətən çətindir. Bir var adi qətl, bir də var planlı şəkildə törədilmiş. Hələ uşağın da bu işə cəlb olunması ikinci bir dəhşəhdir. Biz övladlarımızı hər cür travmadan qoruyuruq. Uşağın prosesdə iştirakı onun psixologiyasında da ciddi fəsadlara yol açıb. Azyaşlının anası tərəfindən belə bir cinayətə cəlb olunması bizdə cinayətin bir qadın tərəfindən törədilməsinə dair şübhələri daha da artırır”.

**M.Zeynalovanın fikrincə, hadisənin detallarına diqqət etmək lazımdır:** ”Şayiələr gəzir ki, cinayəti törədən qadın öldürülən şəxsin ərinin sevgilisinin rəfiqəsi olub. Kişinin sevgilisi bunu etmiş olsa, ən azından deyərdik ki, qısqanclıq zəminində edib. Amma ərin sevgilisinin rəfiqəsi bunu niyə etsin axı?! Həqiqətənmi aramızda bu cür psixi problemli insanlar var. Mən cinayətkara bəraət qazandırmıram və heç bir cinayətin də cəzasız qalmasının tərəfdarı deyiləm. Amma bu prosesdə olduqca sual doğuran məqamlar var. Hər halda istintaqın nəticələrini gözləmək lazımdır”.

**Günəş Mərd**

# Piylənmə daha çox oğlan uşaqlarında müşahidə olunur

## Valideynlər övladlarının qida rasionuna ciddi diqqət yetirməlidirlər



**Ölkəmizdə piylənmə problemi ilə yaşayan xeyli insanlar var. Bu bəladan qurtarmaq üçün hər kəs müxtəlif yollara əl atır. Dietoloqlara müraciət edənlər də az deyil. Amma yenə də ağır çəkidən şikayətlər azalmır. Bəzən buna səbəb kimi qidalanmanın doğru olmadığını göstərirlər.**

2020-ci ilin statistikasına görə, Azərbaycanda 14 yaşına qədər 1126 uşaq piylənmədən əziyyət çəkir. Bunu Səhiyyə Nazirliyinin mütəxəssis-eksperti, uşaq endekrinoloqu Azad Əkbərzadə deyib. Ekspert bildirib ki, onlardan 544-ü qız uşağıdır:

”14-18 yaş aralığında olan 464 nəfər, 18-28 yaş aralığında 977, 30 yaşdan yuxarı isə 4443 nəfər piylənmədən əziyyət çəkir”.

Statistikaya nəzər saldıqda məlum olur ki, artıq çəki problemi ilə demək olar ki, bütün yaş qrupları qarşılaşır. Lakin 14 yaşdan aşağı uşaqlar və 30 yaşdan yuxarı şəxslərdə piylənmə çoxluq təşkil edir. Düzgün qidalanma olmadığı üçün bədən forması dəyişikliyə uğrayır. Nəticədə zahiri görünüş istədikləri kimi olmur, bu da kompleksə gətirib çıxarır.

**Dietoloq Şəfa Yadigarova ”Şərq”ə açıqlamasında bildirib ki, kiçik yaşlı uşaqlar və gənclər daha çox ”fast food” qidalarına üstünlük verir:**

”Ailə sevindirmək üçün uşaqlarını ”McDonalds” kimi məkanlara aparırlar. Onlar da bir neçə dəfə eyni qidanı qəbul etdikdən sonra uşaqlarda asılılıq yaradır. Bunun üçün həmin qidaların üzərinə müəyyən dadlandırıcı maddələr əlavə edirlər. İnsan onu hər görəndə yemək istəyir. Məsələn, uşaq bir hamburgerlə kifayətlənmirsə, daha çox yeyirsə, bu artıq onun yağlanmasına gətirib çıxarır”.

**Dietoloq öz müşahidələrinə uyğun olaraq vurğulayıb ki, piylənmə əsasən oğlan uşaqlarında təsadüf edilir:**

”Həmin azyaşlılarda estrogenlər daha çox artır. Nəticədə oğlanların bədən forması tam dəyişərək sanki qızlarınkına bənzəyir. Armudvari, yaxud da alma formasında olurlar. Yağ daha çox döş, qarın, çanaq kimi hissələrdə toplanır. Bu da məhz qadına xas olan xüsusiyyətdir. 30 yaşından sonra da cavan nəsil hesab olunur. Onlar daha çox qazlı içkilərə üstünlük verirlər. 30 yaşdan yuxarı şəxslərin fəaliyyətində fiziki aktivlik azlıq təşkil edir. Yuxu rejimi pozulur, telefon, kompüter qarşısında çox vaxt keçirirlər. Texnika önündə sərf etdikləri zaman ərzində şirniyyatlarla qidalanırlar. Kalorilərinə diqqət etmirlər. Müəyyən bir vaxtdan sonra oturaq həyat tərzi artıq çəkiyə səbəb olur. Əvvəl məsələnin ciddiyyətinə varmırlar. Lakin bir müddətdən sonra görürlər ki, çəki günbəgün artır. Beləliklə, metobolik sindrom yaranır. Maddələr mübadiləsinin pozulması nəticəsində qızlarda kişi tipli olmaqla çiyinlər böyüyür, bel hissələri genişlənir, ayaqlar nazik qalır. Kişilər də qadın formasını alır”.

**Ş.Yadigarova piylənmə probleminin həlli yolu olaraq tövsiyə verib:**

”Qidalanmaya fikir vermək vacibdir. Yemək tipini seçərkən maariflənmək lazımdır. Bilgiləndirici verilişlər təşkil olunmalıdır. Məntiqi olaraq düzgün qidalanmamanın fəsadları izah edilməlidir. Bundan başqa, ailələlərə təlimlər keçirilməlidir ki, övladlarına yeməklərin fayda və ziyanından danışsınlar. Piylənmə oğlanlarda cinsi zəifliyə, qızlarda isə sonsuzluğa gətirib çıxara bilər”.

**Sücayət Mehti**

# "Nar" ardıcıl üçüncü il Müştəri Loyallığı İndeksində lider oldu

**2021-ci ilin Müştəri Loyallığı İndeksi nəticələrinə görə mobil operatorlar arasında ”Nar” ən yüksək nəticə göstərərək birinciliyini qoruyub. Ötən illə müqayisədə ”Nar”ın Müştəri Loyallığı İndeksi 2021-ci ildə 50% yüksəlib. ”Nar” 2019-cu ildən etibarən Müştəri Loyallığı İndeksi üzrə yerli mobil rabitə bazarının lideridir.**

Şirkətin Baş İcraçı Direktoru Qunnar Panke əldə olunan nəticədən dolayı qürur duyduğunu bildirir. ””Nar” olaraq bütün fəaliyyətimizi son nəticədə müştərilərimizin rahatlığına fayda verəcək şəkildə qurmuşuq. İstər yeni məhsullar hazırlayarkən, istərsə də mövcud xidmətləri təkmilləşdirərkən abunəçilərimizin rəylərini öyrənirik və tətbiq edirik. Bu liderliyi Azərbaycan kimi rəqabətcil rabitə bazarında 3 il boyunca saxlaya bilmək bizim üçün çox böyük uğurdur.”

”Nar”ın sərfəli təklifləri, mobil internet xidmətlətinin keyfiyyəti və müştəri xidmətlərinin üstünlüyü Müştəri Loyallığı İndeksini üzrə lider mövqeyinin qorunub saxlanmasının əsas faktorları olub. ”Nar” mağazalarının yenilənərək müştərilər üçün daha rahat xidmət şəraitinin yaradılması, ”Nar+” tətbiqinin təkmilləşdirilməsi ilə abunəçilərin balanslarına daha asan nəzarət etməsi və həmçinin davamlı gücləndirilən mobil şəbəkə mobil opeartorun müştəriyönümlülük strategiyası çərçivəsində həyata keçirilir. Mobil operatorun müştəriyönümlülüyü özünün əsas iş istiqaməti kimi müəyyən etməsi abunəçilərin razılığının məhz bu yöndə xüsusi seçilməsinə səbəb olub.

Qeyd etmək lazımdır ki, Müştəri Loyallığı İndeksinin (Net Promoter Score - NPS) müəyyən edilməsi mobil operatordan asılı olmayan, müstəqil qurumlar tərəfindən beynəlxalq təhlil standartlarına uyğun sorğular əsasında aparılır. Bir qayda olaraq, sorğuda iştirak edənlər istifadə etdikləri xidməti yaxınlarına, dostlarına, qohumlarına məsləhət görərdilərmi sualına 10 ballıq qiymətləndirmə ilə cavab verirlər.

# Ukraynadakı yaxınlarınızla əlaqədə qalın!

## Azercell Ukrayna istiqamətində tətbiq etdiyi pulsuz zəngləri martın 26-na qədər uzatdı




**”Azercell Telekom” MMC Ukraynada davam edən durumla əlaqədar Azərbaycandan bu istiqamətdə tətbiq etdiyi pulsuz zənglərin müddətini martın 26-na (26.03.2022 tarixi daxil) qədər uzatdı.**

Lider mobil operator 27 fevral 2022-ci il tarixindən etibarən hazırda Ukraynadakı Azərbaycan vətəndaşları, eləcə də vətəndaşlarımızın bu ölkədə yaşayan qohumları ilə kəsintisiz telefon əlaqəsini təmin etmək, onların çətin anlarında yaxınları ilə ünsiyyətinə dəstək olmaq məqsədilə bu təşəbbüslə çıxış edir. Azercell bütün abunəçilərindən Ukrayna istiqamətində mobil rabitə xəttlərində mümkün yüklənmə riskinin və pulsuz bağlantıdan sui-istifadə hallarının qarşısının alınması məqsədilə qeyd edilən güzəştli zəngləri 3 dəqiqə civarında saxlamağı xahiş edir.

*Qeyd edək ki, Azercell daha öncə Ukraynada rominqdə olan abunəçilərin nömrələrinin balansını artıraraq 50 azn həcmində vəsait yükləyib. Balansartırma həm fakturalı, həm fakturasız xətt sistemlərinə aid bütün nömrələrə şamil olub.*

*Şirkətin xidmət mərkəzləri 7/24 abunəçilərin xidmətindədir: Çağrı Mərkəzi (ümumi əlaqə nömrəsi *1111, fakturasız xətt abunəçiləri üçün (012) 490 49 49, fakturalı xətt abunəçiləri üçün (012) 490 52 52); Online Dəstək xidməti; ”Kabinetim” tətbiqi: https://www.azercell.com/az/personal/digital-solutions/kabinetim.html vasitəsilə sizi maraqlandıran suallarla müraciət edə və ya lazımı məlumatı əldə edə bilərsiniz.*

Beynəlxalq İxtiraçılıq və Biznes İnstitutu
KURSLAR
-MÜHASİBAT (2 AY)
-Mobil telefonların təmiri (3 ay)
-KOMPYUTER (1-3 AY)
-KOSMETOLOGİYA və VİZAj (3 AY)
-KİŞİ və QADIN BƏRBƏRİ (1-3 ay)
-Dizayn (3-6ay)
-Masaj (3 ay)
-Biçmə - Tikiş (3 ay)
-Məktəb Psixologiyası (12 ay)
Tel: (012) 489-08-84
Mob: (070) 241-28-67
www.az-baku.com

Təsisçi və baş redaktor: Akif Aşırlı
Baş redaktorun ı müavini: Yusif Nəzərli
Redaktor: Ayyət Əhməd

Reportyorlar qrupu:
Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Kənan Eynuroğlu, Günəş Mərd, Aygün Tahir

Texniki heyət:
Rüfət Dadaşov, İmamcan Əliyev, Nailə Cabarova, İlahə İbrahimova, Fazilə Məmmədova

Qəzet “Şərq”in kompyuter mərkəzində yığılır, səhifələnir və “Azərbaycan” nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb.
Lisenziya: 535
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti, “Azərbaycan” nəşriyyatı.
Telefon: 447-32-41
538-44-50, internet 538-44-15,
İndeks: AZ1073

Hesab nömrəsi: “Kapitalbank”ın ASC 1 saylı Nəsimi filialı 9900003611
SWIFT BIK AII-BAZ2X h/h
AZ17AIIB38070019441100466111
Kod 200112 M/H
AZ37NABZ01350100000000001944
VÖEN 1300414651 İndeks: 0330 Tirajı: 2550 Sifariş: 554



## 20 dərəcə şaxta...

### Rus əsgərləri donaraq ölür!

**Rusiya ordusuna məxsus hərbi texnika nasazlıq səbəbindən Kiyev yaxınlığındakı bölgədə hərəkətsiz qalmaqdadı. Mənfi 20 dərəcəyə çatan hava şəraitində 40 tonluq nəhəng buz parçasını xatırladan tankların içindəki əsgərlər də donmaq təhlükəsi ilə üz-üzədir.**

"CNN Türk" xəbər verir ki, Şərqi Avropada hazırda havanın temperaturu iqlim normasından xeyli aşağıdır. Soyuq hava kütləsi həm əsgərləri, həm də müharibədən qaçan dinc əhalinin kabusuna çevrilib. Ukraynada gecələr mənfi 10 dərəcə şaxta müşahidə edilir. Lakin havanın üstəlik küləkli olması səbəbindən temperatur mənfi 20 dərəcəyə enir. Kiyev və Xarkov ətrafında məhz belə iqlim şəraiti hökm sürməkdədir. Rus əsgərlərini nasaz hərbi texnikanın içində gözləməkdən başqa çarələri qalmayıb. Əsgərlər 20 dərəcə şaxtada donaraq ölmək təhlükəsiylə üzləşiblər. İngiltərədən Ukrayna üçün döyüşməyə gəlmiş minbaşı Kevin Price CNN-ə açıqlamaısnda deyib ki, belə hava şəraiti rus əsgərlərin əhval-ruhiyyəsini pozur. Əsgərlər bitkin durumdadır. Belə vəziyyətdə çox dayana bilməyərək təslim olacaqlar.

**Məlahət**

## Tbilisidə Avstraliya vətəndaşını öldürən azərbaycanlı

### 20 il azadlıqdan məhrum edilib



**Gürcüstanın paytaxtı Tbilisidə Avstraliya vətəndaşı Şanai Bruku öldürməkdə təqsirləndirilən etnik azərbaycanlı Rafael Mursakulov 20 il müddətinə azadlıqdan məhrum edilib.**

APA-nın yerli bürosu xəbər verir ki, qərar hakim Zviad Şaradzenin sədrliyi ilə keçirilən məhkəmə iclasında elan edilib.

Məhkəmədə təqsirləndirilən şəxs yekun nitqində qətli törətdiyinə görə peşman olduğunu bildirib və Şanai Brukun qardaşı Tayson Edvardsdan üzr istəyib.

*Qeyd edək ki, Avstraliya vətəndaşı Şanai Bruk 30 iyul 2021-ci ildə yoxa çıxıb. Onun cəsədi iyulun 31-də Mtatsminda dağının yamacında tapılıb. Gürcüstanın hüquq-mühafizə orqanlarının əməkdaşları hadisəni törətməkdə şübhəli bilinən Rafael Mursakulovu sentyabrın 8-də həbs ediblər.*

## Qaynana kürəkəninə qoşulub qaçdı



**Türkiyənin Atv kanalında Müge Anlının aparıcılıq etdiyi ailə-məişət məsələləri ilə bağlı verilişdə qalmaqallı anlar yaşanıb.**

**Milli.Az haberlerə istinadla bildirir ki, övladlarını və ərini tərk edən 42 yaşlı Cemile Özdemir kürəkəni ilə qaçıb. Kürəkəni ilə öpüşərkən çəkilən fotolarına vecsiz reaksiya verən qadın aparıcı daxil tamaşaçıları da təəccübləndirib. "Ərim və uşaqlarım vecimə deyil. Hərə öz dərdinə çarə qılsın. Qayıtmayacağam", - qadın söyləyib.**

## "WhatsApp"da bunları etmək mümkün olmayacaq




**"WhatsApp" messenceri istifadəçilər üçün yeni məhdudiyyət tətbiq etməyə hazırlaşır.**

**Axşam.az xəbər verir ki, bu barədə "WABetaInfo" portalı məlumat yayıb. Məhdudiyyət mesajların yenidən göndərilməsini qadağan edəcək. Belə ki, messencerin yeni beta versiyasında istifadəçi "göndərilib" işarəli mesaj alarsa, həmin məlumatı qrup halında bir neçə çata eyni zamanda göndərmək mümkün olmayacaq.**

**Mesajı qrup halında bir neçə çata yollamaq üçün isə həmin məlumatı növbəti dəfə seçmək və göndərmək lazım olacaq.**

**Məhdudiyyətin nə vaxt qüvvəyə minəcəyi isə hələlik bəlli deyil.**

## 3 qida təzyiqi normada saxlayır

### Britaniyalı həkim ən effektiv ərzaqları sadalayıb



**Britaniyalı kardioloq həkim Kris Stil This Morning teleşousunda yüksək təzyiq xəstələri üçün təzyiqi salan ən effektiv ərzaqları sadalayıb.**

**Bakupost.az xəbər verir ki, təbii ev yoqurtu. qoz, bitki çayı, yaşıl çay arterial təzyiqi salmağa kömək edir.**

**"Hər gün yoqurt yeyin, amma bu natural, qatqısız, şəkərsiz olmalıdır. Canlı yoqurt evdə hazırlanandır, onda canlı bakteriyalar olur.**

**Təzyiq xəstələləri hər gün 5 ədəd qoz da yeməlidir. İdeal çayları isə hibiskus bitksinin qırmızı çayıdır".**

**Bu 4 ərzağı gündəlik masanızda saxlayın və onları yediyiniz gün təzyiqinizin qeydini aparın.**






# "TikTok" fenomeni oldu

### Ukraynalı qız sığınacaqdakı həyatı dünyaya göstərdi




**Sığınacaqdakı həyatını videoya çəkib "TikTok"da "Valerissh" adıyla paylaşan ukraynalı qız sosial mediada fenomenə çevrilib.**

"NTV.com"un məlumatına görə, gənc qız sığınacaq həyatını göz yaşları, ahu-zarla deyil, zarafatyana tərzdə, gülərək göstərir. Ukraynalı qız hesab edir ki, kədərli günlərdə də sevinməyə səbəb tapmaq olar. İnsanın ən ağır günlərdə də ümidini itirməməsi və gülümsəməyi bacarması lazımdır. Videolara dünyanın dörd bir yanından dəstək mesajları "yağır". Ukraynanın Çerniqov şəhərinin sakini olan "Vaalerissh" ailəsiylə birlikdə günlərdir sığınacaqda yaşayır. Və burada keçən günlərini məzəli dillə anladır, partlayış sədaları altında baş verənləri videoya çəkir. Gənc qız sığınacağı 5 "ulduz"lu otelə "bənzədir". Müharibədən öncəki həyatları ilə hazırkı həyatlarını müqayisə edir. Sığınacaqdakı dəmir vannanı, oteldəki "cakuzi" zənn edir. "Dopu"da yemək bişirilməsini Avropa mətbəxinə "bənzədir". Yataq yerini göstərir. Böyük tabağın içindəki makaronları "əsl spagetti" kimi tərif edir. Gənc qız




paylaşımlarının altında "bir gün tarix dərsində bu görüntülərin izlənəcəyini xəyalınıza gətirin", yazıb. "Valerissh"in paylaşımları ingilis dilində olduğundan artıq 300 min izləyicisi var. İngilis dilindəki paylaşımlar sayəsində Ukraynadakı durumdan dünyanın müxtəlif ölkələrinin sosial media istifadəçiləri də xəbər alır. Gənc qız bugünədək bir neçə telekanala canlı bağlanaraq sığınacaqdakı durumlarını anladıb.

**Məlahət**



# Təhdid zəngi gəldi

### Məşhur yeməyin adı Putinə görə dəyişdirildi



**Ukraynaya hərbi müdaxilə səbəbindən Rusiya Prezidenti Vladimir Putinə duyulan qəzəb yeməklərə də yansıyıb. "Şərq" NTV.com-a istinadən bildirir ki, Kanada "Poutine" adlanan yeməyin adı "Putin"ə bənzədiyi üçün dəyişdirilib. "Poutine" adlı yeməyin icraedicisi sayılan "Le Roy Jucep" restoranı Rusiya-Ukrayna müharibəsi səbəbiylə yeməyin adını dəyişdirərək "la frite fromage sauce" - qızardılmış pendir gravy - edib.**

Və bu barədə xüsusi elanla xəbər verib. Restoran yeməyin adını 25 fevral tarixində bir təhdid zəngindən sonra dəyişdirmək qərarına gəlib. Sonrakı gün isə bir ukraynalının restorana təşəkkür etdiyi bildirilib: "Orada bir nəfərin üzünü güldürdüksə, xoş halımıza. Ukrayna, ən güclü şəkildə yanındayıq!". Qeyd edilir ki, "Poutine" qızardılmış kartofun üzərinə pendir və gravy sous (un və ya qarğıdalı nişastasıyla qatılaşdırılmış ət suyundan ibarət sous) əlavə edilərək hazırlanan yemək növüdür. Qeyd edilir ki, adıkeçən restoranın Fransada da şöbələri var. "Maison la Routine" adlı restoranlar şəbəkəsinə Rusiya-Ukrayna müharibəsi başlanan gündən təhdid zəngləri edilib. Martın 3-də restoran rəhbərliyi açıqlama yayaraq Ukrayna xalqını dəstəklədiklərini və yeməyin adını "Putin" adına bənzəməsi səbəbiylə dəyişdirdiklərini elan ediblər. Əlbəttə, heç bir restoran müştərilərini incik salmaq istəməz. Tarixdə belə hallara bundan öncə də rast gəlinib. Birinci Dünya müharibəsindən sonra İstanbula mühacirət edən imperiya tərəfdarı ruslar özləriylə "rus salatı"nı da gətirdi. Və "rus salatı" uzun illər türk mətbəxində yer aldı. Lakin İkinci Dünya müharibəsindən sonra Türkiyə SSRİ-yə qarşı NATO-ya üzv olunca "rus salatı" "Amerikan salatı"na döndü.

**Məlahət**

## İlin toyu

### Biyons səhnəyə çıxdı



**Hindistanın iki ən zəngin ailəsi - milyonçular Ambani və Piramalların övladları 27 yaşlı İşa Ambani və 33 yaşlı Anand Piramalın toyu artıq 5-ci gündür ki, davam edir.**

5 gün ərzində dünya "ulduzları" toyda səhnə alaraq mahnılar ifa ediblər.

"CNN Türk" xəbər verir ki, pop "ulduz" Beyonse də toya dəvətlilər sırasında səhnəyə çıxıb. Toyda məşhur "Bollivud" "ulduzları"nın az qala hamısı, o cümlədən Şahrux Xan da iştirak edir. Hətta ABŞ-ın sabiq xarici işlər naziri, sabiq president Bill Klintonun həyat yoldaşı Hillari Klintonun da toya təşrif buyurduğu bildirilir. Toya dəvətliləri ölkəyə gətirmək üçün 100 təyyarə reysi təşkil olunub. Toyda ev sahibləri Mukeş Ambani həyat yoldaşı Nita və gəlin olan qızları İşa ilə birlikdə 5 min 200 nəfərə özləri qulluq edib. Gəlinin özü isə evsiz insanlara şəxsən yemək təqdim edib.

**Məlahət**

## Cici Hadidinin paylaşımı "Vogue"ya baha başa gəldi




**"Vogue" nəşri son paylaşımlarından birinə görə qalmaqalla qarşılaşıb.**

Axşam.az xəbər verir ki, nəşr bir müddət əvvəl məşhur model Cici Hadidin Ukrayna və Fələstinə maddi yardımı ilə bağlı məlumatda dəyişiklik etməli olub.

Buna səbəb modelin orijinal paylaşımında yer alan mətndə Ukraynada yaşanılanların Fələstində baş verənlərlə eyni tutulması təxribatçılıq kimi qiymətləndirilib. İsrail təsir dairələri jurnalı antisemitizmdə və təhlükəli siyasi bəyanatlar yaymaqda ittiham ediblər. Bundan sonra "Vogue" sözügedən paylaşımda redaktə etmək məcburiyyətində qalıb. Onlar paylaşımda modelin yalnız Ukrayna ilə əlaqəli hissəsini saxlayıblar. Lakin rəsmi saytlarında yer alan xəbərdə hər hansı dəyişiklik etməyiblər.

Jurnalın bu cür addım atması isə daha sonra fələstinlilərin təzyiqləri ilə qarşılaşmasına səbəb olub. Çünki mətndən Fələstinin çıxarılması Cici Hadidin nəzərdə tutduğu ianələri yalnız Ukraynaya bağışladığı kimi anlaşılıb ki, bu isə doğru deyil.